RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 03 (9458) 10 YANVAR 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik"

◆ Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın yanvarın 9-da rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

→ 2-3

## Əməkdaşlıq genişlənir

### Azərbaycan və BƏƏ arasındakı "yaşıl enerji" tərəfdaşlığı qısa müddətdə real nəticə verib

Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətləri dərin köklərə və dostluğa əsaslanır. İki ölkə arasında münasibətlərin çoxşaxəli və dinamik olması, açıq siyasi dialoqların aparılması iqtisadi sahələrdə, o cümlədən enerji sektorunda əlaqələrin inkişafına təkan verib. Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Prezident İlham Əliyevin 2023-cü ilin sonlarında BƏƏ-nin evsahibliyi etdiyi Əbu-Dabi Davamlılıq Həftəsinə dəvət edilməsi və bu tədbirdə yüksək səviyyədə iştirakı ikitərəfli əlaqələrin bariz nümunəsi oldu.

→ 9

◆ Müəllifi İlham Əliyevdir

## 12 zavod, 30-dan çox istehsalat sahəsi



### Sumqayıt Kimya Sənaye Parkı Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindəndir

Yolumuz Cənubi Qafqazın ikinci ən böyük sənaye şəhəri Sumqayıtadır. Elə şəhərə yaxınlaşdıqca yol boyunca müşahidə etdiyimiz Sumqayıt Kimya Sənaye Parkına daxil olan zavodlar, müəssisələr bunu deməyə əsas verir.

Müxtəlif adda və çeşiddə məhsullar istehsal edən bu müəssisələr birlikdə sənaye şəhərciyini xatırladır. Bizim isə budəfəki ünvanımız Sumqayıt Kimya Sənaye Parkının rezidenti Sumqayıt Texnologiyalar Parkıdır (STP).

Son onilliklərdə Prezident İlham Əliyevin sərəncamları əsasında innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkədə yerli və xarici investisiyalar üçün əlverişliliyin və istehsal sahəsində məşğulluğun artırılması məqsədilə bir çox sənaye parkları yaradılıb. Sumqayıt Kimya Sənaye Parkının rezident üzvü, 2009-cu ildə yaradılan STP isə regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən sayılır.

250 hektar ərazidə fəaliyyət göstərən STP özündə 12 zavodu birləşdirir ki, onlar da 30-dan çox istehsalat sahəsini əhatə edir. İxtisaslaşmış zavodlar kompleksində müxtəlif məhsulların hazırlanıb ərsəyə gəlməsində və satışa çıxarılmasında isə 2000-ə yaxın işçinin əməyi var.

→ 10

## Yeni il, yeni hədəflər

Qarabağ bölgəsində "yaşıl enerji" istehsal etmək üçün münbit imkanlar var. Bu ərazilərdə həm külək, həm də günəş enerjiləri üçün potensial böyükdür. Azad olunmuş ərazilərdəki çaylar da ucuz və ekoloji baxımdan təmiz enerji verən su-elektrik stansiyalarının yaradılması üçün əlverişlidir. Ona görə də həmin ərazilər "yaşıl enerji" zonası elan edilmişdir.

Prezidentin ən vacib mesajlarından biri də bu oldu: "2024-cü il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar". Bu, əlbəttə, gəlişi gözəl sözlər deyil, dövlətin gücündən, qüdrətindən doğan reallığa köklənmiş istəkdir. Çünki Azərbaycanda separatizmin kökü kəsilib və bu bəla bir daha bu torpaqlarda baş qaldıra bilməz. Prezidentin builki müraciəti erməni işğalından tamam azad olmuş Azərbaycanın dövlət başçısının çıxışı kimi yaddaşlara hopacaq. Onun təbrik nitqi eyni zamanda "Heydər Əliyev İli"nin başa çatması ilə üst-üstə düşdü. Bəlkə də bu, Ulu Öndərin xatirəsi qarşısında bir hesabat idi. Ulu Öndərin 100 illik yubileyi onun görmək istədiyi köçkünsüz Azərbaycanda qeyd olundu. Prezident müraciətində bu barədə belə dedi: "Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir".

→ 9

## Prezident seçkiləri azad, ədalətli və şəffaf keçiriləcək

### Respublikamızda bunun üçün demokratik mühit, praktik təcrübə və siyasi iradə var

İstənilən seçki hər bir demokratik cəmiyyət üçün mühüm siyasi hadisə hesab edilir. Bu baxımdan qarşıdan gələn növbədənkənar prezident seçkisinin istər Azərbaycan cəmiyyəti, istər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması və izlənilməsi təbiidir. Əsas odur ki, respublikamızda statusundan və məzmunundan asılı olmayaraq hər bir seçkinin ədalətli və şəffaf keçirilməsi üçün olduqca böyük təcrübə, siyasi iradə və demokratik ənənələr var.

Qeyd edək ki, təqvim planına əsasən namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi ötən il dekabrın 19-dan başlayıb və bu il yanvarın 8-də başa çatıb. İlk olaraq isə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyi MSK tərəfindən qeydə alınıb. Ümumilikdə isə indiyədək MSK 7 nəfərin prezident seçkilərində namizəd kimi qeydə alınmasına qərar verib.

→ 8

## Ölkəmizə qarşı qərəzli mövqe tutanlara ən yaxşı cavab

### Azərbaycan çoxəsrlik ənənələrinə söykənən tolerantlıq prinsiplərinə sadiqdir

Azərbaycanın torpaqlarının iyirmi faizi otuz ilə yaxın Ermənistanın işğalı altında qaldı. Həmin ərazilərdə olan bütün müasir və tarixi tikililər, nəinki yerli, hətta dünya əhəmiyyətli abidələr işğalçı ermənilər tərəfindən dağıdıldı, yandırıldı, yerlə yeksan edildi. Erməni vandalları dini abidələrimizə, məbədlərimizə, məscidlərimizə divan tutdular, uçurdular, məhv etdilər. Məscidlərimizi tövləyə çevirdilər. O qədər azğınlaşdılar ki, müsəlman qəbiristanlıqlarına belə əl uzatmaqdan çəkinmədilər, qəbirləri dağıtdılar. Heç bir qanuna, insanlığa sığmayan bu hadisələri nə ermənipərəst Qərb ölkələri, nə də hər zaman demokratiyadan, insan haqlarından dəm vuran ABŞ "gördü". Təəccüb ki, qəsbkar ermənilərə "gözün üstə qaşın var" deyən tapılmadı.

Ermənistanın otuz ilə yaxın işğal müddətində Azərbaycana vurduğu maddi və mənəvi ziyanın nə qədər böyük olduğunu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsindən sonra görə bildik.

→ 11

## Fransa üçün erməni amili sadəcə vasitədir

Nəticə etibarilə erməni cəmiyyətində revanş xülyaları baş qaldırır, Fransanın timsalında Qərb dairələri prosesləri yeni hərbi qarşıdurmaya təşviq edirdi. Lakin 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatizmə son qoyulması, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi və Ermənistan ordusunun hissələrinin Qarabağdan çıxarılması ilə Azərbaycanın suverenliyi tam bərpa olundu. Beləliklə, Azərbaycanla Ermənistan arasında 35 illik gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarıldı. Bu gün Azərbaycan regionda əməliyyat şəraitinə tam nəzarət edir və artıq 4 aya yaxındır ki, bölgəmizdə atəş səsləri eşidilmir. Yəni mahiyyət etibarilə ölkələr arasında yekun sülh üçün heç bir maneə yoxdur.

→ 11

## Paşinyanın Qərb sevgisi...

### Erməni ekspertlər bu qənaətdədirlər ki, baş nazir Hayastanı siyasi və diplomatik məğlubiyyətə aparır

→ 12

## Tramp Baydenə ultimatum verib

### Sabiq prezident Ağ Evin hazırkı rəhbərini korrupsiyada ittiham edir



Sabiq prezident dörd cinayət işi üzrə ümumilikdə 91 ittihamla üz-üzədir və respublikaçı siyasətçi bunu demokratik isteblişmentin onun Ağ Evə qayıtmasına mane olmaq cəhdi adlandırır. İttihamların cəminə əsasən, siyasətçini 700 ildən çox həbs cəzası gözləyir. Amma Tramp bütün ittihamları rədd edir.

→ 12

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri

# "Strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik"

## Rəsmi qarşılanma mərasimi















Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın yanvarın 9-da rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.

Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın qarşısından keçdi. Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri

# "Strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik"

## Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri prezidentlərinin geniş tərkibdə görüşü keçirilib





Yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin oğlu Şeyx Həmdan bin Məhəmməd Əl Nəhyan iştirak ediblər.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Hörmətli cənab Prezident, Əziz Qardaşım.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz.

Sizin Azərbaycana səfər etməyiniz tarixi hadisədir. Bu, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verəcək.

Biz Sizinlə dünən rəsmi ziyafət zamanı bir çox məsələləri ətraflı müzakirə etdik və bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik.

Şadam ki, bizim şəxsi görüşlərimiz müntəzəm xarakter alır. Keçən ay biz Sizinlə Əbu-Dabidə görüşmüşdük.

Fürsətdən istifadə edərək, COP28 Konfransının uğurla keçirilməsi münasibətilə Sizi bir daha təbrik edirəm. COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyiniz dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, BMT Təhlükəsizlik Şurasındakı mövqeyinizə görə, Azərbaycana verdiyiniz dəstəyə görə Sizə bir daha xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün bir çox önəmli sənədlər imzalanmışdır, bir azdan sonra sənədlərin mübadiləsi mərasimi keçiriləcək. Əminəm ki, bu sənədlər gələcək əməkdaşlığımız üçün çox güclü zəmin yaradacaq.

Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə "yaşıl enerji" sahəsində çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə günəş-elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat "yaşıl enerji" istehsalı nəzərdə tutulur.

Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri - Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir.













Biz bunu çox yüksək qiymətləndiririk, çünki Sizin ölkəniz Sizin rəhbərliyinizlə çox böyük uğurlara imza atıb, dünyanın ən inkişaf etmiş, ən uğurlu ölkələrindən birinə çevrilib. Bilirəm ki, bir çox ölkələr üçün Sizin uğurlu təcrübəniz bir nümunədir.

Əminəm ki, Sizin səfəriniz bizim strateji tərəfdaşlığımızı möhkəmləndirəcək, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcək. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Prezident **Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan** çıxış edərək dedi:

- Cənab Prezident, Azərbaycana səfər etməkdən çox böyük məmnunluq duyuram, qonaqpərvərliyə və səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Xüsusən də dünən rəsmi ziyafət zamanı bizim apardığımız danışıqlar və iki ölkə arasında əlaqələrin perspektivinə dair əldə etdiyimiz razılaşmalar sevindiricidir. Cənab Prezident, Sizin dövlətinizə, Sizin xalqınıza uğurlu il arzu edirəm.

Biz iki ölkə arasında bu gün imzalanmış Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu qeyd etmək istəyirik. Bu anlaşma memorandumu ilə ölkələrimiz arasındakı əlaqələr strateji əhəmiyyət kəsb edir. Ticarət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələrində də əlaqələrimizin və əməkdaşlığımızın inkişafı istiqamətində səylərimizi səfərbər edəcəyik.

İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və biz müxtəlif sahələrdə daimi tərəqqi və uğurun şahidi oluruq. Biz də Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq.

Qeyd etdiyiniz kimi, münasibətlərimizin inkişafı öz başlanğıcındadır. Biz də öz növbəmizdə ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi və yeni körpülərin yaradılması istiqamətində səylərimizi səfərbər edirik.

Cənab Prezident, bu il Azərbaycanın COP29 tədbirinin keçirilməsi ilə bağlı seçilməsi münasibətilə Sizə bir daha təbriklərimi çatdırmaq istəyirəm. Bu da öz növbəsində bütün dünyanın Azərbaycana etimadının bir təzahürüdür və bu münasibətlə Sizə uğurlar arzulayıram. Keçən dəfə Dubayda görüşdüyümüz zaman qeyd etdiyimiz kimi, əlbəttə, Azərbaycan bu kimi mötəbər tədbirlərin keçirilməsinə qadirdir və hazırdır.

Cənab Prezident, qonaqpərvərliyə, səmimi qəbula və xüsusən də dünən iki saatdan artıq keçirdiyimiz gözəl vaxta görə, - həqiqətən bu iki saat ərzində mən bizim görüşümüzdən çox həzz aldım, - Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, dünən də qeyd etdiyim kimi, Birləşmiş Ərəb Əmirliklərinin bütün təcrübəsi hesab edin ki, Sizin əlinizdədir. Hər bir sahədə biz öz təcrübəmizi Sizinlə bölüşməyə, xüsusən də COP29-un keçirilməsində öz təcrübəmizi Sizinlə paylaşmağa hazırıq.

Bildiyiniz kimi, Birləşmiş Ərəb Əmirliklərinin bir çox sahədə böyük təcrübəsi var. Biz də sizin kimi qardaş ölkələrlə bu təcrübəni paylaşmağa, bölüşməyə hər zaman hazırıq. Amma bəzi məqamlar, bəzi sahələr var ki, o sahələrdə biz də öyrənirik. Çox sağ olun, cənab Prezident.

❖ ❖ ❖

Prezident **İlham Əliyev:** Təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Qeyd edək ki, səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi arasında Niyyət Protokolu", "ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpaolunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və "Yaşıl Enerji"nin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi", "Azərbaycanda quruda quraşdırılacaq 1 GVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi", "ADNOC və SOCAR şirkətləri arasında Strateji Əməkdaşlıq Sazişi" imzalanıb.

Daha sonra danışıqlar təkbətək görüş əsnasında davam etdirilib.

## Səfər başa çatdı

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycan Respublikasına rəsmi səfəri yanvarın 9-da başa çatıb.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 507 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşlarının (Xidmətdən pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinin sanitar-epidemioloji, ambulator-poliklinik və stasionar yardım üzrə tibb xidmətləri ilə təmin olunması "Hərbi qulluqçuların statusu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar müvafiq vəsaitin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Azərbaycan Respublilkası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 508 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 730-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1344; 2021, № 11, maddə 1294) ilə təsdiq edilmiş "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar təmsilçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi təmsilçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya təmsilçi tərəfindən təmin edilir.".

2. 2.4-cü bəndə "gec olmayaraq" sözlərindən sonra "(bu Qaydanın 2.2-1-ci bəndinin tələbi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

3. 3.1.1-ci yarımbəndə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Qaydanın 2.2-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 509 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 738-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655; 2022, № 5, maddə 552; 2023, № 1, maddə 126; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 oktyabr tarixli 363 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla, ərizəyə aşağıdakı sənədlər əlavə edilir:".

2. Aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. Dövlət ekoloji ekspertizasının keçirilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

3. 2.12-ci bənd üzrə:

3.1. birinci cümləyə "sənədlərin" sözündən sonra "(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

3.2. üçüncü cümləyə "barədə" sözündən sonra "(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 511 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Müəssisələrin mülkiyyətində (balansında) olan mülki müdafiə təyinatlı əmlakların siyahısı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Müəssisələrin mülkiyyətində (balansında) olan mülki müdafiə təyinatlı əmlakların siyahısı" təsdiq edilsin (əlavə olunur*).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 512 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturunun təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və bəzi qərarlarının ləğvi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 10 dekabr tarixli 1900 nömrəli Fərmanının 2-ci hissəsinin, "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2022-ci il 10 dekabr tarixli 3643 nömrəli Sərəncamının 3.2-ci bəndinin və "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2023-cü il 25 iyun tarixli 2199 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 360; 2001, № 10, maddə 663; 2003, № 6, maddə 342; 2005, № 6, maddə 541; 2006, № 5, maddə 463; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1369; 2013, № 10, maddə 1199; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2018, № 12 (II kitab), maddə 2736; 2021, № 7, maddə 871, № 10, maddə 1195; 2022, № 4, maddə 413, № 8, maddə 974; 2023, № 3, maddə 431) ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin III hissəsinin iyirmi birinci abzasında "rayon (şəhər) gənclər və idman idarələri" sözləri "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 637; 2001, № 10, maddə 663; 2004, № 3, maddə 193; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370, № 5, maddə 463, № 9, maddə 822; 2009, № 1, maddə 32; 2012, № 5, maddə 482; 2014, № 11, maddə 1507; 2018, № 8, maddə 1817; 2021, № 10, maddə 1199; 2022, № 11, maddə 1346) ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.6-cı yarımbəndinin ikinci cümləsində "yerli gənclər və idman idarəsinə" sözləri "həmin Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsinə və regional idarələrinə" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 572, № 7, maddə 642; 2007, № 5, maddə 556, № 8, maddə 850, № 11, maddə 1172, № 12, maddə 1342; 2011, № 1, maddə 57; 2012, № 1, maddə 43, № 5, maddə 490; 2013, № 3, maddə 345; 2016, № 4, maddə 802, № 11, maddə 1931; 2018, № 5, maddə 1113; 2021, № 10, maddə 1188; 2022, № 1, maddə 54) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulasında "aparatının işçilərinin say həddinin" sözləri "işçilərinin ümumi say tərkibinin" sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsinin yeddinci abzasından "Baş" sözü çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861, № 9, maddə 923, № 10, maddə 1021, № 12, maddə 1331; 2009, № 1, maddələr 22, 32, № 2, maddə 150, № 4, maddələr 282, 293, № 8, maddələr 674, 675, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 2, maddələr 146, 161, № 11, maddə 1040; 2011, № 1, maddə 54, № 5, maddə 447, № 9, maddə 855; 2012, № 5, maddə 475, № 8, maddə 817, № 10, maddə 1028, № 11, maddə 1204, № 12, maddələr 1363, 1388; 2013, № 1, maddə 73, № 8, maddələr 1015, 1038, № 10, maddə 1219; 2014, № 1, maddə 69, № 3, maddə 312, № 6, maddə 736, № 7, maddə 918, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 612, № 6, maddə 799, № 11, maddə 1413; 2016, № 2 (II kitab), maddə 381, № 4, maddələr 781, 831, № 5, maddə 955, № 7, maddə 1342, № 8, maddələr 1439, 1450, № 9, maddələr 1583, 1585, 1588, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 283, 295, 310, № 5, maddə 972, № 8, maddə 1610, № 10, maddə 1920; 2018, № 2, maddə 335, № 3, maddələr 577, 626, № 7 (II kitab), maddə 1654, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 159, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 7, maddə 1005, № 10, maddə 1311, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 280, № 8, maddə 965, № 11, maddə 1280; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 6, maddə 686, № 7, maddə 810, № 8, maddələr 974, 1024, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075, № 10, maddələr 1437, 1440; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 dekabr tarixli 462 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın "II. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları:" bölməsinin 18.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"18.1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin:

18.1.1. Bakı Şəhər Gənclər və İdman İdarəsi

18.1.2. Regional idarələri".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652, № 10, maddə 1306, № 11, maddə 1413; 2021, № 2, maddə 203, № 3, maddə 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 695, № 11, maddə 1280, № 12, maddə 1508; 2022, № 4, maddələr 375, 379, 384, 412, № 5, maddə 577, № 6, maddə 686, № 7, maddə 811, № 8, maddə 1023, № 9, maddə 1083, № 12, maddə 1552; 2023, № 1, maddə 139, № 4, maddə 583, № 7, maddə 1075, № 8 (II kitab), maddələr 1244, 1277, № 10, maddə 1440; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 dekabr tarixli 462 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan:" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan:

Bakı Şəhər Gənclər və İdman İdarəsi

Regional idarələr".

6. "Bədən tərbiyəsi və idmanla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073; 2010, № 4, maddə 354; 2014, № 9, maddə 1137; 2016, № 9, maddə 1585; 2017, № 3, maddə 495, № 4, maddə 643; 2020, № 10, maddə 1294; 2021, № 9, maddə 1087; 2022, № 8, maddə 1023; 2023, № 9, maddə 1323; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 noyabr tarixli 404 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş "Hüquqi şəxs statusu olmayan idman klubu haqqında Nümunəvi Əsasnamə"nin 1.4-cü bəndinin beşinci abzasında "müvafiq şəhər (rayon) gənclər və idman baş idarəsində (idarəsində)" sözləri "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman İdarəsində və regional idarələrində" sözləri ilə əvəz edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri" üzrə:

6.2.1. 2-ci hissənin on üçüncü abzasında "şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri)" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə, on dördüncü abzasında "Bakı şəhər Gənclər və İdman Baş İdarəsi" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi" sözləri ilə əvəz edilsin;

6.2.2. 4-cü hissənin səkkizinci abzasında "şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri)" sözləri "Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsi və regional idarələri" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242; 2012, № 3, maddə 260; 2013, № 3, maddə 346; 2016, № 1, maddə 181; 2019, № 1, maddə 147, № 5, maddələr 937, 955, 977; 2022, № 7, maddə 818; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 noyabr tarixli 408 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "II. Təsərrüfathesablı qurumlar:" bölməsinin 32-ci və 33-cü hissələrindən "Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin" sözləri çıxarılsın.

8. "Azərbaycan Respublikasının şəhər və rayonlarında və Naxçıvan Muxtar Respublikasında Gənclər və İdman Baş İdarələri və idarələrinin ştat vahidlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 16 mart tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 756; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 23 oktyabr tarixli 227 nömrəli Qərarı) ləğv edilsin.

9. "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 noyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1191) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 510 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 oktyabr tarixli 2335 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 360 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1811; 2020, № 11, maddə 1408; 2021, № 7, maddə 869) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "11" rəqəmləri "9" rəqəmi ilə əvəz edilsin.

2. "Kollegiyanın üzvləri" bölməsinin birinci abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 491 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri"nin təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş hədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət satınalmalarının vahid internet portalına uyğun olaraq real vaxt rejimində satınalan təşkilata və dövlət satınalmalarının vahid internet portalının operatoruna ötürülməsi üçün zəruri tədbirlər görsün.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 492 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Satınalan təşkilatların, satınalma müqavilələrinin və etibarsız təchizatçıların reyestrlərinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Satınalan təşkilatların, satınalma müqavilələrinin və etibarsız təchizatçıların reyestrlərinin aparılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 493 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamənin və elektron satınalmanın keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Elektron satınalmanın keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 494 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Açıq tender, ikimərhələli tender, qapalı tender və kotirovka sorğusu metodları üzrə təchizatçıların satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması tələblərinə uyğunluğunun qiymətləndirilməsi meyarları"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Açıq tender, ikimərhələli tender, qapalı tender və kotirovka sorğusu metodları üzrə təchizatçıların satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması tələblərinə uyğunluğunun qiymətləndirilməsi meyarları" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 495 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Satınalma güzəştinin tətbiqi Qaydası"nın təsdiq edilməsi və "Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Satınalma güzəştinin tətbiqi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648; 2016, № 7, maddə 1364; 2019, № 4, maddə 746, № 7, maddə 1334; 2020, № 9, maddə 1202; 2023, № 8 (II kitab), maddə 1265) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 496 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları"nın təsdiq edilməsi və "Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 dekabr tarixli 396 nömrəli Qərarının ləğv edilməsi barədə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 dekabr tarixli 396 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1520) ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 497 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Çərçivə sazişinin, təklif sorğusunun və sadə satınalma müqaviləsinin nümunəvi formasının təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.17-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Çərçivə sazişinin nümunəvi forması" təsdiq edilsin *(1 nömrəli əlavə)*.

2. "Təklif sorğusunun nümunəvi forması" təsdiq edilsin *(2 nömrəli əlavə)*.

3. "Sadə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin *(3 nömrəli əlavə)*.

4. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 498 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Uyğunluğa dair sənədlər toplusunun və uyğunluq göstəricilərinin qiymətləndirilməsi haqqında qərarın formasının təsdiq edilməsi barədə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Uyğunluğa dair sənədlər toplusu" təsdiq edilsin (1 nömrəli əlavə).

2."Uyğunluq göstəricilərinin qiymətləndirilməsi haqqında qərarın forması" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 499 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Satınalma metoduna uyğun olaraq satınalmanın nəticələri haqqında yekun protokolun Forması"nın təsdiq edilməsi və "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.14-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Satınalma metoduna uyğun olaraq satınalmanın nəticələri haqqında yekun protokolun forması" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 535; 2016, № 4, maddə 831; 2019, № 4, maddə 746; 2021, № 10, maddə 1162; 2023, № 8 (II kitab), maddə 1265) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 500 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Satınalma planının formasının, habelə satınalma planında, uyğunluğa dair sənədlər toplusunda, şərtlər toplusunda və təkliflərin cəlb edilməsi barədə elanda (dəvətdə) satınalma predmetinin qeyd olunması üçün təsnifat kodlarının və onlardan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1."Satınalma planının forması" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Satınalma planında, uyğunluğa dair sənədlər toplusunda, şərtlər toplusunda və təkliflərin cəlb edilməsi barədə elanda (dəvətdə) satınalma predmetinin qeyd olunması üçün təsnifat kodları və onlardan istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 501 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Ehtimal olunan qiymətin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ehtimal olunan qiymətin hesablanması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətlərinin hesablanması üsulları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 540) ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 502 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Satınalma predmeti üzrə satınalma müqaviləsinin nümunəvi formasının təsdiq edilməsi və "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarının ləğv edilməsi barədə

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur)*.

3. "İşlər üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin *(əlavə olunur)*.

4. "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 149; 2019, № 4, maddə 746; 2021, № 5, maddə 520, № 10, maddə 1162) ləğv edilsin.

5. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

** Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Prezidentin köməkçisi Anar Ələkbərov Respublika Perinatal Mərkəzində hadisə yerinə və yanğın zamanı tüstüdən zəhərlənənlərə baş çəkib




Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, səhiyyə naziri Teymur Musayev və baş prokuror Kamran Əliyev Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla əlaqədar hadisə yerində olublar.

AZƏRTAC xəbər verir ki, rəsmi şəxslərə yanğının başvermə səbəbləri və nəticələri barədə məlumat verilib.

Sonra Anar Ələkbərov, Teymur Musayev və Kamran Əliyev yanğın zamanı tüstüdən zəhərlənərək Kliniki Tibbi Mərkəzə yerləşdirilənlərə baş çəkiblər.

Qeyd edək ki, Respublika Perinatal Mərkəzində baş vermiş yanğın nəticəsində burada müalicə alan 4 uşaq həlak olub. Hadisə zamanı tüstüdən zəhərlənən şəxslərə tibbi xidmətlər göstərilib. Onların vəziyyətləri stabildir, ambulator müalicə üçün evə buraxılmaları nəzərdə tutulub.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

# Respublika Perinatal Mərkəzində baş vermiş yanğında 4 uşaq ölüb

Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla bağlı cinayət işi başlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluq, Fövqəladə Hallar Nazirliyi və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) yaydığı birgə məlumatda deyilir.

Bildirilib ki, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsində yerləşən Respublika Perinatal Mərkəzində baş vermiş yanğın Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb, aidiyyəti dövlət orqanlarının koordinasiyalı və operativ fəaliyyəti nəticəsində mərkəzdə olan şəxslər təxliyə olunublar.

Baş Prokurorluğun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə hadisə yerinin müayinəsi aparılıb, eləcə də zəruri və təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

İlkin araşdırmalar zamanı müəyyən edilib ki, 3 nəfər tüstüdən zəhərlənmə səbəbilə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə hospitalizasiya olunub. Onlara zəruri tibbi xidmətlər göstərilib, vəziyyətləri stabildir, ambulator müalicə üçün evə buraxılmaları nəzərdə tutulub.

Dərin təəssüf hissilə qeyd edirik ki, mərkəzin Yenidoğulmuşların intensiv terapiya şöbəsində müalicə alan 4 uşağın meyiti aşkar olunub.

Fakta görə, Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

"İstintaqın gedişatı və nəticələri barədə ictimaiyyətə mütəmadi olaraq məlumatın verilməsi təmin ediləcək.

Hadisə ilə əlaqədar vəfat edənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayırıq", - birgə məlumatda qeyd edilib.

# Daxili işlər naziri xidmətə qəbulla bağlı növbəti sıra baxışı keçirib



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 9-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Sıra baxışında nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 177 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 21 nəfəri Vətən müharibəsinin iştirakçısıdır. Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Naxçıvan MR Ali Məclisi tərəfindən ötən il ərzində 17 qərar, 9 qanun qəbul olunub

Naxçıvan Muxtar Respublikası (MR) Ali Məclisi tərəfindən 2023-cü il ərzində 17 qərar, 9 qanun qəbul olunub.




AZƏRTAC xəbər verir ki, Naxçıvan MR Ali Məclisinin 1 fevral-31 may 2023-cü il tarixdəki yaz sessiyasında 2 plenar iclas, 3 komitə iclası keçirilib, 4 qanun qəbul olunub, 1 qanunda dəyişiklik edilib, 2 qanun ləğv edilib, 4 qərar qəbul olunub.

1 iyun-30 sentyabr 2023-cü il tarixdə baş tutan növbədənkənar sessiyada 1 plenar iclas, 2 komitə iclası keçirilib, 3 qanun qəbul olunub, 3 qanunda dəyişiklik edilib, 4 qərar qəbul olunub.

2 oktyabr-30 dekabr 2023-cü il tarixdə keçirilən payız sessiyasında 9 plenar iclas, 6 komitə iclası keçirilib, 2 qanun qəbul olunub, 3 qanunda dəyişiklik edilib, 9 qərar qəbul olunub.

# Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində daha iki həyət yenilənərək sakinlərin istifadəsinə verilib











Paytaxtın Nəsimi rayonu, Bakıxanov küçəsi, 42 və Sabunçu rayonu, Bakıxanov qəsəbəsi Sakit Qocayev 25, 25a, 25b, 27 və 27c ünvanlarında 4600-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən həyətlər abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.






AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətlərin açılışında, o cümlədən tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib. Bayram tədbiri zamanı abadlaşdırılan həyətin azyaşlı sakinləri üçün xüsusi bayram şənliyi təşkil olunub, onlara bayram hədiyyələri təqdim edilib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhvali-ruhiyyəsi yaradıb, sevinc dolu anlar bəxş edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmanla məşğul olmaq həvəsinin yaradılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq üçün oyun meydançaları salınıb. Eyni zamanda həyətyanı sahələrdə 16 söhbətgah, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik xətləri yenidən çəkilib.

Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 650 ədəd müxtəlif növ ağaclar, 19100 ədəd kol əkilib, 3542 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.



Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən icra olunan "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 149 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilmişdir.

Xüsusi olaraq qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin qaynar xətti 1113 və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə yanvarın 9-da Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın yanvarın 6-da keçirilmiş iclasının protokolu təsdiq olunub.



Sonra fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizədliyinin qeydə alınması məsələsinə baxılıb. Proseslərin gedişi barədə ətraflı məlumat verilərək bildirilib ki, sözügedən namizədlərin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər səlahiyyətli nümayəndələri tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra seçki qanunvericiliyində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılıb, namizədlərin qeydə alınması üçün əsasların olması müəyyən edilib.

Komissiya geniş müzakirələrdən sonra namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd kimi qeydə alınmasına qərar verib.

İclasda fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar ölkə hüdudlarından kənarda səs verən seçicilərin seçici siyahılarına alınması məqsədilə seçki dairələrinin siyahısının təsdiq edilməsi məsələsinə də baxılıb və müvafiq seçki dairələri müəyyən edilib. Komissiyanın iclasında, habelə Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun tərkibində dəyişiklik olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçisi, prezidentliyə namizədin və namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media qurumları nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

### QƏRAR № 2/5

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 yanvar tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 yanvar tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/6

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/31 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 2-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyev namizəd kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/7

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/28 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 2-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafa namizəd kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/8

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/30 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 3-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayev namizəd kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/9

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/29 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 3-də namizədin səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyev namizəd kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/10

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ölkə hüdudlarından kənarda yaşayan seçicilərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin siyahısının təsdiq edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 29.2-ci və 47.4-cü maddələrinə görə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər seçki dairələri üzrə siyahıya alınırlar. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və ya konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatları Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi təqdim edir. Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında prezident seçkiləri zamanı göstərilən seçicilərin siyahıya alınması üçün müvafiq seçki dairələrinin siyahısını təsdiq edir.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan Azərbaycan Respublikası vətəndaşlarının seçici siyahılarına daxil edilməsi üçün onların Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşaması faktı, habelə uzunmüddətli xarici ezamiyyətlərdə olması faktı əsas götürülür.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan və uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatlar Xarici İşlər Nazirliyi tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında seçicilərin seçicilər siyahısına salınması üçün müvafiq seçki dairələrinin siyahısını təsdiq etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 29.2-ci, 35.6-cı və 47.4-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərdə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin siyahısı təsdiq edilsin *(əlavə olunur).*
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ölkə hüdudlarından kənarda yaşayan seçicilərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin siyahısı**

*- 15 saylı Yasamal birinci;*
*- 16 saylı Yasamal ikinci;*
*- 17 saylı Yasamal üçüncü;*
*- 19 saylı Nərimanov birinci.*

### QƏRAR № 2/11

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74.5-ci və 88.8-ci maddələrinə əsasən **qərara alır:**

"Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində Mətbuat qrupunun yeni tərkibdə formalaşdırılması barədə" Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 sentyabr tarixli 17/85 saylı Qərarında aşağıdakı dəyişiklik edilsin:

1. 1-ci hissədə "Lider" sözü "ARB 24" sözü ilə əvəz edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

### QƏRAR № 2/12

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Rafiq Nəbi oğlu Nuriyev 27 saylı Sabunçu ikinci, Cavanşir İsmayıl oğlu Qasımov 58 saylı Xaçmaz kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*09.01.2024-cü il*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## Prezident seçkilərində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən seminar-müşavirələrə başlanılıb



Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkili, azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər gerçəkləşdirilməkdədir.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi (DİN) ilə birgə layihə çərçivəsində yanvarın 9-dan etibarən regional seminar-müşavirələrə başlayıb.

Prezident seçkilərində polisin əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən tədbirlərdə dairə seçki komissiyalarının sədrləri və polis orqanlarının nümayəndələri iştirak edirlər.

Seminar-müşavirələrdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələrinin prezident seçkilərinin hazırlanıb keçirilməsi proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə müxtəlif mövzularda çıxışları dinləniləcək, təqdimatlar və müzakirələr aparılacaq.

İlk seminar-müşavirə yanvarın 9-da Bakıda keçirilib.

Bakı Şəhər Baş Polis İdarəsində keçirilən seminar-müşavirənin açılışında Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları, Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkili ilə bağlı görülən işlərdən danışıb.

DİN-in Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini Eldəniz Məmmədov deyib ki, fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsi, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi məqsədilə Daxili İşlər Nazirliyində müvafiq Tədbirlər Planı təsdiqlənib və icrası xüsusi nəzarətə götürülüb.

Növbədənkənar prezident seçkiləri zamanı asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində Bakı Şəhər Baş Polis İdarəsi və rayon polis idarələri tərəfindən təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil olunacaq.

Baş İctimai Təhlükəsizlik İdarəsinin profilaktiki işin təşkili idarəsinin rəisi, polis polkovnik-leytenantı Sənan Əliyev və həmin idarənin Milli-dini işlər üzrə şöbəsinin rəisi, polis polkovniki Oqtay Tağıyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və MSK-ya gətirilərkən təhlükəsizlik tədbirlərinin görülməsindən söz açıblar.

Tədbirdə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinə qanunsuz müdaxilənin yolverilməzliyi, seçki günü polis əməkdaşlarının fəaliyyəti və digər məsələlərə toxunublar.

Qeyd edək ki, maarifləndirmə tədbirləri növbəti mərhələdə yanvarın 12-də Gəncədə, yanvarın 14-də Şəkidə, yanvarın 16-da Şirvanda və yanvarın 18-də Naxçıvanda keçiriləcək.

Xatırladaq ki, qarşıdan gələn seçkilərdə polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" da hazırlayıb və aidiyyəti üzrə çatdırılıb.

Sonda seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb, müzakirələr aparılıb.

## *MSK-nın üzvü:* "Bu il vətəndaşlarımız ilk dəfə azad olunmuş ərazilərdəki seçkilərdə iştirak edəcəklər"

Qarşıdan gələn seçkilərdə qarşımıza qoyduğumuz vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq. Bu gün Azərbaycan xalqı tarixində ilk dəfə olaraq tam ərazi bütövlüyü şəraitində seçkilər keçirilir.

Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən azad edilmiş ərazilərdə də seçki məntəqələri yaradılıb. Bu il həmin seçki məntəqələrində Azərbaycan vətəndaşları ilk dəfə olaraq səsvermədə iştirak edəcəklər. Əvvəllər də seçkilərdə məcburi köçkünlər iştirak edirdilər və heç kəs seçkilərdən kənarda qalmırdı. Builki seçki onunla əlamətdardır ki, vətəndaşlarımız artıq öz yaşayış yerlərində və işğaldan azad olunmuş ərazilərdə keçiriləcək seçkilərdə ilk dəfə iştirak edəcəklər. Bu ərazilərin azad olunmasında, ölkəmizin suverenliyinin bərpasında Azərbaycan vətəndaşları olaraq polis əməkdaşlarının da böyük xidmətləri olub. Ermənistanın torpaqlarımızı işğal etməyə başladığı vaxtdan Vətən müharibəsində Qələbəmizədək daxili işlər orqanlarının ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə iştirakı xalq tərəfindən həmişə yüksək qiymətləndirilib və onlar da bu işlərdə layiqli töhfələrini veriblər. Polis işçiləri də ərazi bütövlüyümüz uğrunda mübarizədə şəhid olublar.

AZƏRTAC xəbər verir ki, bu barədə növbədənkənar prezident seçkiləri ilə əlaqədar polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunmuş seminar-müşavirənin açılışında çıxış edən MSK-nın üzvü Ramiz İbrahimov deyib.

Onun sözlərinə görə, bu tədbirlər seçkilər təyin olunan gündən MSK-nın tərtib etdiyi təqvim planına uyğun olaraq keçirilir. İlkin belə tədbir seçkilər elan olunandan dərhal sonra seçki prosesində iştirak edəcək bütün dövlət orqanlarının iştirakı ilə MSK-da keçirilib.

Ötən seçkilərdə - 2018-ci il prezident seçkilərində, 2020-ci il Milli Məclisə olan seçkilərdə polis orqanlarının xidmətini həyata keçirən şəxslərin fəaliyyətindən, demək olar ki, hər hansı şikayət daxil olmayıb. Çox sevindirici haldır ki, Azərbaycanda polis öz vəzifəsini yerinə yetirərkən bütün qayda-qanunlara və üzərinə düşən vəzifələri dəqiqliklə əməl etdiyindən bu vətəndaşlar tərəfindən çox yaxşı qarşılandı və onlar barədə hər hansı bir şikayət verilmir.

Qeyd edilməsi zəruridir ki, Azərbaycanda Seçki Məcəlləsinə görə üçpilləli seçki komissiyaları mövcuddur. Bu gün Bakı ərazisi üzrə dairə seçki komissiyalarının sədrləri də seminar-müşavirədə iştirak edirlər. MSK-da seçkilərlə bağlı keçirilən tədbirdə daxili işlər nazirinin müavini İsmət Əliyev orada çıxış edərək həm polis orqanları tərəfindən görülmüş, həm də gələcəkdə görüləcək işlər barədə məlumat vermişdi.

Diqqətə çatdırılıb ki, DİN seçkilər başlanan gündən başa çatanadək seçki orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərir və seçkilərin keçirilməsində mühüm rol oynayır. Belə ki, seçki sənədlərinin mühafizəsi və daşınması, tərtib olunmuş məntəqədə səsvermənin nəticəsinə dair protokolların məntəqə seçki komissiyasından dairə seçki komissiyasına, oradan isə MSK-ya, eyni zamanda səsverməyə dair bülletenlərinin mətbəədən dairə seçki komissiyalarına çatdırılması və mühafizəsi daim polisin nəzarəti altında və polisin müşayiəti ilə həyata keçirilir.

Qeyd edək ki, MSK tərəfindən polis əməkdaşları üçün yaddaş kitabçası dərc olunub.

## *Rövzət QASIMOV:* "Xaricdə ezamiyyədə olan və respublikadan kənarda daimi yaşayan seçicilərin siyahısı MSK-ya təqdim edilib"

**"Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında ölkə hüdudlarından kənarda səs verən seçicilərin seçici siyahılarına alınması məqsədilə müvafiq seçki dairələrinin siyahısının təsdiq edilməsi məsələsi müzakirəyə çıxarılıb".**

AZƏRTAC xəbər verir ki, məsələ barədə MSK sədrinin müavini Rövzət Qasımov məlumat verib.

R.Qasımov bildirib ki, Mərkəzi Seçki Komissiyası seçicilərin seçici siyahılarına alınması məqsədilə müvafiq seçki dairələrinin siyahısının təsdiq edilməsi üçün bir sıra lazımi addımlar atıb. Onun sözlərinə görə, Xarici İşlər Nazirliyi tərəfindən uzunmüddətli xaricdə ezamiyyədə olan və respublikadan kənarda daimi yaşayan seçicilərin siyahısı artıq Mərkəzi Seçki Komissiyasına təqdim edilib.

Müzakirələrdən sonra ölkə hüdudlarından kənarda səs verən seçicilərin seçici siyahılarına alınması məqsədilə müvafiq seçki dairələrinin siyahısı məsələsi səsverməyə çıxarılaraq təsdiqlənib.

## 125 saylı Zəngilan-Qubadlı DSK-sı üzrə azad olunan ərazidə 4 seçki məntəqəsi fəaliyyət göstərəcək

**Fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkisi Zəngilan və Qubadlı rayonlarında 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə 4 məntəqədə keçiriləcək. Həmin məntəqələrdən 3-ü Zəngilan, 1-i isə Qubadlı rayonu ərazisində yerləşir.**

Dairə Seçki Komissiyasının sədri Əli Mönsümov AZƏRTAC-a bildirib ki, dairə üzrə Zəngilan və Qubadlı rayonlarında yerləşən seçki məntəqələrində səsvermə prosesinə hazırlıq işləri gedir. Məntəqələrdən biri Zəngilanın Ağalı kənd tam orta məktəbində yerləşən 33 saylı seçki məntəqəsidir. Bu günə qədər həmin məntəqə üzrə 994 seçici qeydə alınıb ki, onlardan da səsvermə hüququ olan 603 nəfər Ağalıda məskunlaşan sakinlərdir. Kənd üzrə ilk dəfə səsvermədə iştirak edənlərin sayı isə 31 nəfərdir. Ən yaşlı seçici isə 1933-cü il təvəllüdlüdür.

Əli Mönsümovun sözlərinə görə, 33 saylı seçki məntəqəsinə yaxın ərazilərdə çalışan işçilər də bu məntəqədə səsvermədə iştirak edə biləcəklər. Zəngilan rayonu ərazisində çalışan işçilərin səsvermədə iştirakı üçün fəaliyyət göstərəcək digər seçki məntəqəsi Alıbəyli kəndi ərazisində yerləşən 61 saylı məntəqədir. Bu günədək məntəqə üzrə 570 nəfər seçici qeydə alınıb. Üçüncü seçki məntəqəsi isə Ağbənd qəsəbəsindəki 62 saylı seçki məntəqəsidir və burada 561 seçicinin qeydiyyatı aparılıb.

125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin Qubadlı rayonu üzrə fəaliyyət göstərəcək seçki məntəqəsi isə Xanlıq kəndi ərazisində yerləşən 63 saylı seçki məntəqəsidir və bu günədək məntəqə üzrə 1466 seçici qeydiyyata alınıb.

## *Talış sakini:* "Səsvermədə işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış sakinlər olaraq iştirak edəcəyik"

**"Bir aydan sonra ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu seçki ölkəmizin digər bölgələri ilə yanaşı, işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda da təşkil edilməsi ilə əlamətdar olacaq. Biz Talış kəndinin sakinləri uzun illərdən sonra doğma torpaqlarda səs verəcəyimiz üçün sevincliyik".**



Bunu AZƏRTAC-a Talış kənd sakini Taleh Aslanov deyib. "Köçkünlük illərində Bərdə rayonunda məskunlaşmışdıq. Nəhayət, 30 ildən sonra ötən ilin martında doğma yurdumuza qayıtdıq. Artıq azad edilmiş ərazilərə, o cümlədən Talış kəndinə həyat yenidən qayıdıb. Doğma torpaqlara qayıtdığımız, gözəl evlə, şəraitlə təmin olmağımız üçün sevinirik. Həm də sevinirik ki, gələn ay keçiriləcək prezident seçkilərində işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış sakinlər olaraq iştirak edəcəyik", - deyə Talış sakini bildirib.

Qeyd edək ki, fevralın 7-də Azərbaycan Respublikasında növbədənkənar prezident seçkiləri keçiriləcək. İşğaldan azad edilmiş ərazilərdə 26 məntəqə üzrə 23 mindən artıq seçici səs verə biləcək.

## Prezident seçkiləri azad, ədalətli və şəffaf keçiriləcək

### Respublikamızda bunun üçün demokratik mühit, praktik təcrübə və siyasi iradə var

Növbədənkənar prezident seçkisinə bir aydan da az vaxt qalır. Seçkiyə hazırlıq Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş əsas hərəkət və tədbirlərin Təqvim Planına uyğun davam edir. Qeyd edək ki, bu, 1993-cü ildən bəri respublikamızda demokratik şəkildə baş tutacaq 7-ci prezident seçkisi olacaq.

### 7 nəfərin namizədliyi qeydə alınıb

İstənilən seçki hər bir demokratik cəmiyyət üçün mühüm siyasi hadisə hesab edilir. Bu baxımdan qarşıdan gələn növbədənkənar prezident seçkisinin istər Azərbaycan cəmiyyəti, istər beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanması və izlənilməsi təbiidir. Əsas odur ki, respublikamızda statusundan və məzmunundan asılı olmayaraq hər bir seçkinin ədalətli və şəffaf keçirilməsi üçün olduqca böyük təcrübə, siyasi iradə və demokratik ənənələr var.

Qeyd edək ki, təqvim planına əsasən namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin MSK-ya təqdim edilməsi ötən il dekabrın 19-dan başlayıb və bu il yanvarın 8-də başa çatıb. İlk olaraq isə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyi MSK tərəfindən qeydə alınıb. Ümumilikdə isə indiyədək MSK 7 nəfərin prezident seçkilərində namizəd kimi qeydə alınmasına qərar verib.

Növbədənkənar prezident seçkilərində 5-i siyasi partiyalar, 12-si özü tərəfindən olmaqla, 17 nəfərin namizədliyinin irəli sürülməsi MSK-nın müvafiq qərarları ilə təsdiq olunmuşdur.

Növbədənkənar seçkilərin yüksək səviyyədə təşkil olunub azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər gerçəkləşdirilməkdədir. Həmçinin ekspert qrupunun üzvləri, müşahidəçilər və polis əməkdaşları üçün yaddaş kitabçaları dərc olunub.

### Görüşlər üçün 125 seçki dairəsi üzrə 139 açıq, 139 qapalı yer ayrılıb

Seçkilərə hazırlığın əsas mərhələlərindən biri namizədlərin seçkiqabağı təşviqatıdır. Respublikamızın seçki qanunvericiliyinə əsasən təşviqat səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Qarşıdan gələn prezident seçkilərində namizədlərin təşviqatı yanvarın 15-i başlayacaq, fevralın 6-sı saat 8.00-da dayandırılacaq.

Seçkiqabağı təşviqat tədbirləri çərçivəsində seçicilərlə görüşlər üçün şəhər və rayonlarda 125 seçki dairəsi üzrə 139 açıq, 139 qapalı yer müəyyən edilib. Həmin yerlərdən bütün təşviqat subyektləri bərabər əsaslarla ödənişsiz istifadə edə bilərlər. Bundan başqa, prezidentliyə qeydə alınan namizədlərə seçkiqabağı təşviqat aparmaq məqsədilə İctimai Televiziyada, "Azərbaycan" və digər qəzetlərdə ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq.




### Seçkilərə "ASAN" töhfə

Onu da qeyd edək ki, prezident seçkiləri ilə bağlı "ASAN xidmət" mərkəzlərində yeni layihə gerçəkləşdirilib. Belə ki, seçkilərdə iştirakla bağlı "ASAN xidmət" mərkəzlərində innovativ həll təmin edilib. Mərkəzlərdə olan "ASAN növbə" terminallarına "Seçici statusunu yoxla" adlı funksional bölmə əlavə edilib. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd olunan yerdə oxudaraq adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür. Əgər məlumatlar sistemdə əks olunmazsa, açılmış ekranda əlaqə məlumatlarını yazmaqla Mərkəzi Seçki Komissiyasına müraciət etmək imkanı da yaradılıb.

Sözügedən innovativ həll Mərkəzi Seçki Komissiyası və "ASAN xidmət"in birgə layihəsi çərçivəsində reallaşdırılıb. "ASAN xidmət"ə müraciət edən vətəndaşlarımız növbə götürərkən eyni vaxtda bu sistemdən istifadə etməklə harada səs verməli olduqlarını operativ şəkildə dəqiqləşdirə bilərlər.

Seçkilərin ədalətli, obyektiv və şəffaf həyata keçirilməsi həmin ölkədə cəmiyyətin demokratik mühitinin yüksək olmasından xəbər verir. Azərbaycanda vətəndaşların seçki hüquqları ən yüksək səviyyədə, demokratik prinsiplər çərçivəsində təmin olunur. O cümlədən respublikamızda seçkilərin azad, ədalətli və sərbəst şəkildə həyata keçirilməsi üçün müasir demokratik çağırışlara cavab verən qanunvericilik bazası mövcuddur. Ölkəmizdə seçkilərin keçirilməsi üçün lazımi şərait yaradılıb, seçki komissiyaları müasir texniki avadanlıqlarla təchiz edilib. Bu mənada qarşıdan gələn növbədənkənar prezident seçkiləri də ədalətli, şəffaf və demokratik standartlara uyğun keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycanın Batumidəki baş konsulluğunda yaradılan seçki məntəqəsi səsverməyə tam hazırdır

Fevralın 7-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar ölkəmizin Batumidəki baş konsulluğunda yaradılan seçki məntəqəsi səsverməyə tam hazırdır.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Batumidəki baş konsulluğundan məlumat verilib.

Bildirilib ki, Batumidə təhsil alan, eləcə də bu şəhərdə, Poti və Kulevi terminallarında çalışan Azərbaycan Respublikası vətəndaşları seçkilər barədə məlumatlandırılıb. Eyni zamanda seçici siyahıları dəqiqləşdirilib. Adları seçici siyahılarında yer alan, eləcə də səsvermə günü Batumidə ezamiyyətdə olan vətəndaşlarımız sərbəst, azad, şəffaf və demokratik şəkildə öz seçimlərini edəcəklər. Bunun üçün məntəqədə hər cür şərait yaradılıb.

## *Qax ziyalısı:* "Builki prezident seçkiləri ölkə tarixinin ən qürurverici seçkilərindən biri olacaq"



"Bu il fevralın 7-nə təyin edilmiş prezident seçkiləri heç şübhəsiz ki, ölkə tarixinin ən qürurverici seçkisi kimi yaddaşlara əbədi həkk olunacaq. Azərbaycan xalqı ilk dəfə olaraq ərazi bütövlüyünü tam bərpa etmiş qalib ölkənin Prezidentini seçəcək. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Həqiqətən də, 30 ilə yaxın həsrətini çəkdiyimiz doğma torpaqlarımızda prezident seçkilərinin keçirilməsi olduqca qürurvericidir".

Bu sözləri AZƏRTAC-a Qax ziyalısı, rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Güllü Əhmədova söyləyib. Prezident seçkilərinin ölkənin ictimai-siyasi həyatında çox mühüm hadisə olduğunu vurğulayan rayon ziyalısı deyib: "İndiyədək dəfələrlə müxtəlif seçkilərdə iştirak etmişik. Amma bu dəfə prezident seçkilərində ərazi bütövlüyünü tam bərpa etmiş müstəqil ölkənin vətəndaşı kimi iştirak edəcəyik. Bu, hamımız üçün şərəfdir. Bu seçki xalqımızı daha da işıqlı sabahlara aparacaq. Müstəqil ölkənin vətəndaşı olaraq, mən bütün seçiciləri fevralın 7-də keçiriləcək seçkilərdə fəal iştirak etməyə, daha güclü Azərbaycan naminə səs verməyə çağırıram".



# Əməkdaşlıq genişlənir

## Azərbaycan və BƏƏ arasındakı "yaşıl enerji" tərəfdaşlığı qısa müddətdə real nəticə verib

30 il əvvəl imzalanan "Əsrin müqaviləsi" ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, dövlətin zəmanəti ilə sərmayələrin qorunduğunu, sazişlərin hər bir müddəasına sözsüz əməl edildiyini göstərdi. Odur ki, sonrakı neft və qaz layihələri əməkdaşlıq və tərəfdaşlıq əlaqələrimizi daha da genişləndirdi. 3500 kilometrlik "Cənub qaz dəhlizi" Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi. Bunu dünyanın bir çox görkəmli siyasətçisi də vurğulayıb.

İndi ölkəmiz "yaşıl iqtisadiyyat"a keçid edir və öz növbəsində bu sahə Prezident İlham Əliyevin yaratdığı əməkdaşlıq və tərəfdaşlıq platformasını daha da genişləndirir və möhkəmləndirir. Bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlıq qurduğumuz ilk ölkələrdən biri Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ).Təsadüfi deyil ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi barədə qərar da məhz BƏƏ-də qəbul olunub.

Qeyd edək ki, Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətləri dərin köklərə və dostluğa əsaslanır. İki ölkə arasında münasibətlərin çoxşaxəli və dinamik olması, açıq siyasi dialoqların aparılması iqtisadi sahələrdə, o cümlədən enerji sektorunda əlaqələrin inkişafına təkan verib. Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Prezident İlham Əliyevin 2023-cü ilin sonlarında BƏƏ-nin evsahibliyi etdiyi Əbu-Dabi Davamlılıq Həftəsinə dəvət edilməsi və bu tədbirdə yüksək səviyyədə iştirakı ikitərəfli əlaqələrin bariz nümunəsi oldu.

Bu il yanvarın 8-də isə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycana səfər etdi. Yanvarın 9-da Prezident İlham Əliyevin Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü keçirildi. Görüşdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin oğlu Şeyx Həmdan bin Məhəmməd Əl Nəhyan iştirak etdilər.

Səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi bir daha sübut etdi ki, ölkələrimiz arasında əlaqələr bir çox istiqamət üzrə uğurla davam edir. Belə ki, "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi arasında Niyyət Protokolu", "ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalandı. "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu"nun, "Azərbaycanın bərpa olunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və Yaşıl Enerjinin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi"nin, "Azərbaycanda quruda quraşdırılacaq 1 GVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi"nin, eləcə də "ADNOC və SOCAR şirkətləri arasında Strateji Əməkdaşlıq Sazişi"nin imzalanması enerji sahəsində uğurla başlanmış birgə işlərin gələcəkdə daha çox bəhrə gətirəcəyindən xəbər verir.

Xatırladaq ki, keçən il oktyabrın 26-da işə salınan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası bu əməkdaşlığın böyük uğurudur. Stansiya BƏƏ-nin "Masdar" şirkəti ilə birgə tikilib. 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına on milyardlarla dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub. "Masdar" daim təmiz texnologiya innovasiyalarını artırmağa, Yaxın Şərqdə, eləcə də dünyada bərpaolunan enerji sektorunun inkişafına mühüm töhfələr verməyə səy göstərir. Azərbaycan şirkətin çalışdığı 40-dan çox ölkədən biridir və burada inşa edilən "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. Obyektin şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Təsadüfi deyil ki, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Bakıda, "Qaradağ" stansiyasının açılış mərasimindəki çıxışında demişdir: "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksəksəviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsin. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir. Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl iqtisadi artım" üçün strateji addım idi... Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir".

Qeyd edək ki, keçən ay Bakıda Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradılmışdır. İmzalanan ikinci sənəd isə informasiya-kommunikasiya sektoruna aid olmuşdur.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə yanvarın 9-da keçirilən geniş tərkibdə görüşdə bunları bir daha xatırlatmışdır. Prezidentimiz bu səfərin Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında strateji tərəfdaşlığı möhkəmləndirəcəyinə əminliyini bildirmişdir.

Ali qonaq da "İki ölkənin və iki xalqın rifahı və çiçəklənməsi naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq" fikrini ifadə etmişdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 130-cu kitabı çapdan çıxıb




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 130-cu kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin iyul-sentyabr aylarını əhatə edir. Bu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana və Tacikistana səfərlərinə, həmçinin ölkəmizə səfər etmiş Özbəkistan və Türkiyə prezidentləri ilə görüşlərinə dair materiallar toplanıb.

Xatırladaq ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin 2023-cü ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı iki ölkənin liderləri, həmçinin Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər, Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər, şəhərin baş planı ilə tanış olublar, habelə Şuşa şəhərinə səfər ediblər. Bütün bunlar haqqında informasiyalarla 130-cu kitabda tanış olmaq mümkündür.

2023-cü il sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri isə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi ilə əlamətdar olub. Kitaba Azərbaycan və Türkiyə prezidentlərinin bu mərasimdə iştirakına, habelə təkbətək görüşünə, sənədlərin imzalanmasına, qardaş ölkələrin liderlərinin mətbuata bəyanatlarla çıxışlarına, Naxçıvan Bərpa-İstehsalat Hərbi Kompleksinin açılış mərasimində iştirakına dair informasiyalar da daxil edilib.

Ötən ilin sentyabr ayının ən mühüm hadisəsi isə Qarabağda keçirilmiş lokal xarakterli antiterror tədbirləri olub. Antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib. Prezident İlham Əliyev bu tədbirlərin nəticələri ilə bağlı Azərbaycan xalqına müraciət edib.

***Sitat:*** *"Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən "erməni cəfakeşlərindən" tələb edirdik - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın".*

Azərbaycan Prezidentinin bu müraciətinin tam mətni 130-cu kitaba daxil edilib.

Yeni nəşrdə dövlətimizin başçısının Çinin "China Media Group" media korporasiyasına, Şuşada "Euronews" televiziyasına müsahibələrinin mətnləri də verilib.

Dövlətimizin başçısı avqust ayında həmçinin Qazax, Şəmkir, Samux, Bərdə, Kəlbəcər və Laçında səfərdə olub, Laçın Şəhəri Günü bayram şənliklərində iştirak edib. Oxucu bu kitabda həmin səfərlərin materialları ilə də tanış ola bilər.

"Azərnəşr" tərəfindən buraxılan 130-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan və BƏƏ liderlərinin görüşləri ərəb mediasında geniş işıqlandırılıb





Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Bakıya rəsmi səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirdiyi görüşlər ərəb ölkələrinin mediası tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, BƏƏ-nin rəsmi WAM informasiya agentliyi, "Abu-Dabi TV", "Dubai Zaman" telekanalları, həmçinin "Əl İttihad", "Əl Xalic", "Emarat Əl Yom", "UAEbarq", "Əl Bələd" qəzet və portallarının reportaj və xəbərlərində iki dost dövlətin başçılarının apardıqları danışıqlarda hazırda yüksək səviyyədə olan ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə dair əzm nümayiş etdirildiyi bildirilib. Diqqətə çatdırılıb ki, Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan bu gün imzalanmış Strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu xüsusi qeyd edərək, bu sənədlə iki ölkə arasındakı əlaqələrin strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb. O əlavə edib ki, ticarət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələrində də əlaqələrin və əməkdaşlığın inkişafı istiqamətində səylər artırılacaq.

BƏƏ və digər ərəb ölkələrinin nüfuzlu media orqanları - "SkyNews Arabia", "Əl Ərəbiyə", Dubaydan yayımlanan "CNN Arabic" telekanalları, habelə "Gulf365", "Əl Vətən", "DotGulf", "Əl Bəyan" qəzet və portalları, Bəhreynin rəsmi BNA informasiya agentliyinin reportaj və xəbərlərində BƏƏ Prezidentinin azərbaycanlı həmkarını Azərbaycanın COP29 tədbirinin keçirilməsi ilə bağlı seçilməsi münasibətilə təbrik etdiyi qeyd edilib. Yazılarda vurğulanıb ki, Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan bunun bütün dünyanın Azərbaycana etimadının bir təzahürü olduğunu bildirib və COP29-un keçirilməsində ona uğurlar arzulayıb.

Xəbərlərdə vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyev öz növbəsində COP28 Konfransının uğurla keçirilməsi münasibətilə həmkarını təbrik edib, COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyi dəstəyə görə ona bir daha minnətdarlığını bildirib.

# Yeni il, yeni hədəflər

Prezident İlham Əliyev dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik etdi. Dövlət başçısı ənənəvi çıxışında xalqa təkcə təbrik sözlərini ünvanlamadı, həm də gələcəkdə görüləcək işlərin ürəkaçan anonsunu verdi.

Əslində, yeni ilin gəlişi ilə bağlı dünyada ölkə rəhbərlərinin xalqa müraciəti bir ənənədir. Amma İlham Əliyevin çıxışları hər zaman qlobal müstəvidə unikal hadisə kimi yaddaşlara hopur. Prezident bu dəfə də xalq qarşısında çıxış edərək ötən il görülən işlərin hesabatını verdi və yeni ildə gözlənilən hadisələrdən söz açdı, həyata keçiriləcək böyük layihələr barədə məlumat verdi.

Təbii ki, görüləcək işlər içərisində ən əhəmiyyətli yerdə Böyük qayıdış proqramı və bu çərçivədə 30 ildir öz torpaqlarından ayrı qalan soydaşlarımızın köç prosesi dayanır. Təkcə indiki müraciətində deyil, əvvəlki çıxış və görüşlərində də Prezident dəfələrlə vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə müasir şəhər, kənd və qəsəbələr inşa edilməklə öz ata-baba yurdlarından didərgin düşən insanlara layiq olduqları həyat bəxş olunmalıdır. Və bu deyilənlər təbii ki, sözdə qalmır. Dövlət başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng bərpa və yenidənqurma işləri nəticəsində çox böyük işlər görülür. Qarabağ və Şərqi Zəngəzurda yeni, müasir standartlara cavab verən rahat yollar inşa edilir, tunellər tikilir, yüksəkgərginlikli elektrik xətləri çəkilir, digər infrastruktur qurulur, yaşayış məntəqələri salınır və s.

2023-cü ildə görülən işlərə qiymət verən Prezident lokal xarakterli antiterror tədbirlərindən, eləcə də 44 günlük Vətən müharibəsindəki məğlubiyyətindən sonra Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsindən, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırlayıb həyata keçirmək istəməsindən də danışmışdır: "Bütün bunlara baxmayaraq, Azərbaycanda separatizmin kökü kəsildi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Bütün təzyiqlərə, ittihamlara baxmayaraq separatçı rejim çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alındı".

Qarabağ bölgəsində "yaşıl enerji" istehsal etmək üçün münbit imkanlar var. Bu ərazilərdə həm külək, həm də günəş enerjiləri üçün potensial böyükdür. Azad olunmuş ərazilərdəki çaylar da ucuz və ekoloji baxımdan təmiz enerji verən su-elektrik stansiyalarının yaradılması üçün əlverişlidir. Ona görə də həmin ərazilər "yaşıl enerji" zonası elan edilmişdir.

Prezidentin ən vacib mesajlarından biri də bu oldu: "2024-cü il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar". Bu, əlbəttə, gəlişi gözəl sözlər deyil, dövlətin gücündən, qüdrətindən doğan reallığa köklənmiş istəkdir. Çünki Azərbaycanda separatizmin kökü kəsilib və bu bəla bir daha bu torpaqlarda baş qaldıra bilməz. Prezidentin builki müraciəti erməni işğalından tamam azad olmuş Azərbaycanın dövlət başçısının çıxışı kimi yaddaşlara hopacaq. Onun təbrik nitqi eyni zamanda "Heydər Əliyev İli"nin başa çatması ilə üst-üstə düşdü. Bəlkə də bu, Ulu Öndərin xatirəsi qarşısında bir hesabat idi. Ulu Öndərin 100 illik yubileyi onun görmək istədiyi köçkünsüz Azərbaycanda qeyd olundu. Prezident müraciətində bu barədə belə dedi: "Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir".

Bu bir həqiqətdir ki, Azərbaycanın beynəlxalq nüfuzu ildən-ilə artır. Ötən ilin dekabrında dünyanın ən böyük qurumu olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci (COP28) sammitində COP29-un gələn il Azərbaycanda keçirilməsi qərara alınmışdır. Bu qərarın dünya ictimaiyyəti tərəfindən Azərbaycana olan böyük hörmət və rəğbət olduğunu deyən İlham Əliyev bildirmişdir: "Bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr olunmuş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir".

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesi illər öncə Ulu Öndər tərəfindən başlanılsa da, İlham Əliyev onu hər zaman diqqət mərkəzində saxlayır, dünyanın başqa ölkələrində yaşayan soydaşlarımızın birliyinin daha da möhkəmlənməsini təmin edir. Məhz bu səbəbdən 44 günlük Vətən müharibəsində harada yaşamasından asılı olmayaraq bütün Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx səfərbər olduğunu bir daha göstərdi.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***









# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR



# 12 zavod, 30-dan çox istehsalat sahəsi

## Sumqayıt Kimya Sənaye Parkı Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindəndir

*Əvvəli 1-ci səh.*

Hər şeydən öncə bu texnologiyalar parkında innovativ avadanlıqlar əsasında, dünya standartlarına uyğun istehsal edilən yüksəkkeyfiyyətli məhsullar "Made in Azerbaijan" brendi ilə dünyanı dolaşaraq ölkəmizi tanıdır. STP-nin istehsal etdiyi məhsullar Rusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Avropa və Asiya ölkələrinə ixrac edilir.









### İşimizi asanlaşdıran ödəniş terminallarının hazırlandığı ünvan

Əraziyə daxil olub ilk üz tutduğumuz müəssisə Elektrik Avadanlıqları Zavodu (EAZ) oldu. 2010-cu ildə fəaliyyətə başlayan və STP-nin ən böyük, müasir müəssisələrindən biri olan EAZ-da bizi ilk qarşılayan elə zavod yaranandan burada çalışan Texniki istehsalat bölməsinin meneceri Əliməhəmməd Əkbərov oldu.

"MilliÖn" terminallarına baxdığımızı görən menecer deyir ki, Azərbaycandakı əksər bankların və digər sahələrin müxtəlif çeşiddə ödəniş terminalları bu zavodda istehsal olunur. Doğrusu, müasir, getdikcə yenilənən, demək olar ki, əksər marketlərdə, müəyyən obyektlərdə tez-tez istifadə etdiyimiz bu terminalların çoxumuz xaricdə istehsal olduğunu düşünürdük. Amma illərdir ki, bu aparatlar sifarişə uyğun olaraq müxtəlif dizaynda STP-də hazırlanır.

Əliməhəmməd Əkbərovdan ödəniş terminalının istehsal prosesi barədə soruşuruq. O bildirir ki, bir "MilliÖn" aparatının hazırlanması üçün kəsmə, əymə, boyama, mexaniki yığım, elektrik avadanlıqlarının quraşdırılması proseslərində 12 nəfər çalışır. Gün ərzində 10-20 arası terminalın istehsalı mümkündür.

Onun sözlərinə görə, məhsulların istehsalı zamanı istifadə olunan dəzgahlar və qurğular müasir tələblərə cavab verən, proqramlaşdırılmış kompüter sistemi vasitəsilə idarə olunan, Almaniyada, Finlandiyada, Türkiyədə, Yaponiyada, İtaliyada istehsal olunmuş dəzgah və avadanlıqlardır. Hazır məhsulların yekun testləri isə ABŞ istehsalı olan akkreditasiyadan keçmiş sınaq laboratoriyasında həyata keçirilir.







Ə.Əkbərovla zavoda baxış keçirdiyimiz zaman istehsal olunan digər məhsullar barədə də məlumat aldıq. O bildirdi ki, zavodda müxtəlif təyinatlı dolablar, elektrik yuvaları, kabel kanalları, ventilyasiya boruları, məlumat və növbə köşkləri, sənaye tipli dizel generatorları istehsal olunur: "Doqquz ay olar ki, zavodda sənaye generatorları yığım sahəsi yaradılıb. Bu da 75 kVA-dan 400 kVA-yadək generatorların istehsalına imkan verir. Hazırda müəyyən sifarişlərə uyğun yığım prosesi gedir".

Bu zaman başı işə qarışan bir əməkdaşı görən bölmə meneceri ona tərəf dönərək "Hüseyn köhnələrdəndir" deyir.

Biz də Hüseyn Nəzərova yaxınlaşıb həm iş prosesini izləyir, həm də suallarımızı veririk. O, 14 ildir - yəni zavod yaranandan orada yığıcı çilingər kimi çalışır. Uzun illər bu peşədə təcrübə qazanıb. "Elə əvvəldən burada işləyirəm. Elektrik avadanlıqlarının hissələrini təmir edirik" deyən Hüseyn Nəzərov iş prosesinin heç bir çətinliyi olmadığını çox rahat şəkildə dilə gətirir. Bu da başadüşüləndir. İllərini peşəsinə həsr edən Hüseyn dayı üçün bu iş, əlbəttə ki, asan olacaq.

Ona mane olmamaq üçün çox sual vermədən menecerlə zavodu gəzməyə davam edirik. İş başında gənc işçiləri görüb onların işə qəbul prosesi ilə maraqlanırıq. Menecer deyir ki, gənclər tez-tez zavoda təcrübə keçmək üçün gəlirlər və onların işə qəbulunda heç bir problem yoxdur.

Yeri gəlmişkən, zavodda Türkiyə, Fransa təcrübəsindən istifadə olunur. İşçi heyəti üçnövbəli rejimdə çalışan 60 nəfərdən ibarətdir.

İş prosesindən danışan mütəxəssis bildirir ki, işçilərə ilk mərhələdə giriş, texniki təhlükəsizlik, iş proseduru ilə bağlı təlimatlar verilir və bu proses mütəmadi olaraq davam etdirilir. "Elə vaxt olur ki, həftə ərzində hər gün təlimat verilir. İşçilərə həmçinin yanğınsöndürənlərdən istifadə, qəza zamanı zavodu tərketmə qaydaları barədə təlimlər də keçirilir", - deyə o, əlavə edir.

Qeyd edək ki, Elektrik Avadanlıqları Zavodu böyük istehsal gücünə malik müəssisələrdəndir. Zavod illik 500 ədəd MVC tipli ortagərginlikli elektrik yuvası, 600 alçaqgərginlikli elektrik dolabı, 5000 sayğac, 500 paltar, 500 sənəd, 700 server dolabı,1500 ödəniş terminalı, 500 məlumat və növbə köşkü, 450-500 dizel generatoru və 100 000 metr kabel kanalı istehsal etmək gücünə malikdir.

Zavodda istehsal olunan məhsullar "TOYO ELECTRIC" şirkəti ilə birgə "Şimal-2" Elektrik Stansiyasının modernizasiya və yenidən konstruksiya layihəsində, "Azərenerji" ASC, "Bakı Metropoliteni" QSC, SOCAR-ın bir sıra layihələrində istifadə edilir.

### Avtomatlaşdırılmış, itkisiz istehsalat

STP-də növbəti ünvanımız isə 2014-cü ildə istismara verilən Alüminium və Mis Profilləri Zavodu oldu. Müəssisənin girişində bizi administrativ departament direktoru Aruz Mikayılov və istehsalat direktoru Elşad Qasımov qarşılayırlar. Avadanlıqlarla tanış olmaq, istehsalat prosesini görmək üçün müəssisəni gəzərkən E.Qasımov zavodda istehsal olunan məhsullardan, onların hazırlanmasından danışır: "Zavodda alüminium boşluqlar, isti və soyuq seriyalı profillər, pəncərə sistemləri, elektrik şinləri, standart profillər, müxtəlif diametrli pəstahlar istehsal olunur. Burada hər biri 20-25 ton arası məhsul tutumuna malik iki əritmə sobası var. Bunlar işə salınanda 2-3 gün ərzində alüminium 720-730 dərəcəyədək qızdırılır. İlkin olaraq alınan alüminium külçələr sobalara yerləşdirilir. Analizlər götürülür və pəstahın tərkibi müəyyənləşdirilir. Alüminium maye halında olanda təxminən hər 8 saatdanbir 10 metrlik quyuya süzülür. Daha sonra pəstahlar digər iki sobada homogenezasiya prosesindən keçirilir. Üçüncü sobada isə soyutma prosesi gedir. Kəsim prosesindən sonra pəstahlar paketlənir".

Qeyd edək ki, zavodda istehsal olunan müxtəlif diametrli pəstahlardan alüminium profillərinin istehsalında xammal kimi istifadə olunur və zavod Azərbaycanda pəstah istehsal edən yeganə müəssisəsidir.

Zavodun aylıq istehsal gücünün 2000-2500 tona qədər olduğunu deyən E.Qasımov qeyd edir ki, istehsal olunan pəstahların təxminən 2 min tonu Avropa, Asiya ölkələrinə, ABŞ-yə ixrac olunur.

Daha sonra alüminium profillərini istehsal edən avadanlıqlarla tanış oluruq. Bu arada həmin avadanlıqlara qısaca press deyildiyini qeyd edən istehsalat müdiri bildirir ki, avadanlıqların gücünə əsasən onlarda fərqli diametrli pəstahlar istifadə olunur. Profillərin istehsalı zamanı isə heç bir itki olmur, çünki yerdə qalan hissələr yenidən əritmə sahəsinə göndərilir.

### Məhsulların çoxu xaricə ixrac olunur

Sənaye sahəsinin inkişafı ilə bərabər, ekologiyanın qorunması, ətraf mühitin çirklənməsinin qarşısının alınması da xüsusi önəm daşıyır. Ümumiyyətlə, son dövrlərdə ölkəmizdə sənaye sahəsində yeni texnologiyaların tətbiqi, xüsusi kompüter proqramları sayəsində avtomatlaşdırılmış və fasiləsiz işləyən texnika və avadanlıqlar məhsul istehsalında, demək olar ki, itkiyə yol vermir. Bu da dünya standartlarına uyğun, həmin sahədə ən son yenilikləri tətbiq edən Azərbaycanda modern sənayedən xəbər verir.

"Məhsulların çoxu xaricə ixrac olunur" deyib söhbətə qoşulan Aruz Mikayılov əlavə edir ki, bu, Azərbaycanda tələbatın az olması ilə əlaqədardır. Ölkəmizdə alüminium profillərə ehtiyac çox olduğu halda təkcə bu zavod vasitəsilə tələbatı ödəməyin mümkün olduğunu deyir departament direktoru: "Digər profil istehsalçıları olsa da, bizim müəssisə alüminium profillərinin istehsalı həcminə görə ən böyük zavoddur. Pəstah istehsalı isə ancaq bizim zavodda mümkündür. Növbəti ilin sonuna kimi digər profil istehsalı avadanlıqlarının da işə salınması planlaşdırılır ki, bununla da üç istehsal xətti ilə aylıq ortalama 1000 ton alüminium profili istehsal etmək mümkün olacaq".

A.Mikayılov hazırda müəssisədə profillərin toz boya ilə rəngləndiyini, eloksal boyalı profillərin istehsalının mümkün olmadığını desə də, ancaq bununla bağlı layihə təqdim etdiklərini də vurğulayır.

Məlumat üçün bildirək ki, həm xammalın, həm də hazır məhsulun tərkibinin uyğunluğu üçün analizlər götürülərək zavodun özündə laboratoriya şəraitində yoxlanılır. Tərkiblərin yoxlanılması üçün isə nümunələrdən azı üç dəfə analiz götürülür.

Vurğuladığımız kimi, zavodda istehsal zamanı heç bir xammal itkisi baş vermir. Çünki Alüminium və Mis Profilləri Zavodunda təkrar emal da həyata keçirilir. Kənardan alınan alüminium tullantılar və zavodda istehsal zamanı yaranan qalıqlar avadanlıqlarda preslənir, daha sonra sobaya atılır.

Departament rəhbəri qeyd edir ki, istehsal prosesi nəzərə alınaraq zavodda həm təknövbəli, həm də çoxnövbəli iş rejimi tətbiq olunur. İstehsal sahəsində 170 nəfərlik heyət 8 və 12 saatlıq çoxnövbəli rejimdə çalışır. İşə qəbul zamanı bütün əməkdaşlara təlimlər keçirilir, avadanlıqlardan istifadə ilə bağlı təlimatlar verilir. Onlar bir ay sınaq müddətində başqa mütəxəssisin müşayiəti altında iş prosesini öyrənirlər.

Zavodda işimizi yekunlaşdırıb müəssisədən ayrılaraq xidməti avtobusa doğru irəliləyirik. Amma Sumqayıt Texnologiyalar Parkı bu müəssisə ilə bitmir.

Təbii ki, sənaye şəhəri dedikdə insanlar daha çox havanı çirkləndirən müəssisələri xatırlasa da, amma bu gün texnologiyalar parkında istehsalatda istifadə olunan ən son texnologiyaların tətbiqi müəssisələrinin ətraf mühiti çirkləndirməsinin qarşısı alınır. Bununla yanaşı, STP ərazisindəki yaşıllaşdırma işləri də ekologiyaya vurulan zərəri minimuma endirir.

*Beləliklə, müasir texnologiyalarla təchiz olunmuş, azərbaycanlı mütəxəssislərin fəaliyyət göstərdiyi bu müəssisələr Azərbaycanın qeyri-neft sənayesinin inkişafında Sumqayıtın rolunu daha da artırır.*

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***









# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan dini azadlığı təmin edən ölkələrin zirvəsində dayanır



**"ABŞ Dövlət Departamentinin dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı hesabatının Azərbaycana aid edilən bölməsində reallığı əks etdirməyən qərəzli fikirlər yer alıb. Halbuki Azərbaycan ölkə ərazisində yaşayan bütün etnik qrupların və dinlərin hüquq və azadlıqlarını təmin edir. Ana qanunumuzda dini icmaların fəaliyyətinə diskriminasiya, ayrı-seçkilik və təqiblər qadağan olunub".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, ölkəmizdə hər kəs qanun qarşısında bərabərdir. Lakin kimlərsə din pərdəsi altında qanunu pozaraq ölkənin milli maraqlarına, dövlət quruluşuna təhlükə yaradan fəaliyyətlə məşğul olurlarsa, onlara qarşı qanun çərçivəsində tədbirlər görülür. "Komissiyanın hesabatında Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin oktyabrında başa çatan Qarabağdakı missiyasının heç bir konkret fakta əsaslanmadan havadan tutma məlumatlarla iradlarını bildirməsi çox absurddur", - deyə deputat qeyd edib.

Azər Badamov vurğulayıb ki, ABŞ-də dini mənsubiyyətinə görə insanların dövlət orqanları tərəfindən təqib olunduğunun dəfələrlə şahidi olmuşuq: "Orada hətta polis tərəfindən əliyalın müsəlmanların qətlə yetirilməsi halları mütəmadi baş verir. İslam dininin mənsubu olan şəxslərə qarşı ədalətsiz məhkəmələr keçirilir. Yəni ABŞ-nin özündə dini azadlıq və insan haqları kobud şəkildə daha çox pozulur. Amma Dövlət Departamenti dini azadlıqla bağlı qərəzli hesabatlar hazırlamaqla yenə də müsəlman mənşəli ölkələrə təzyiq etməyə çalışır. Bəs hesabatda xristian dininə mənsub olan ölkələrə qarşı iradlar niyə səslənmir?! Ona görə ki, onları narahat edən islam dünyasıdır".

Deputat bildirib ki, Azərbaycan dini tolerantlığa yüksək dəyər verən ölkədir. Dövlətimiz nəinki öz ərazisində multikulturalizm siyasətini yürüdür, həm də dünyada bu siyasətin uğur qazanılmasına çalışır. Belə ki, ölkəmiz multikulturalizm və tolerantlıq mövzusunda beynəlxalq konfranslar təşkil edir və dünya birliyini həmrəyliyə çağırır. Ölkəmizdə bütün dini icmaların fəaliyyətinə dövlət dəstəyi göstərilir. Məscidlər, kilsələr və sinaqoqlar dövlət dəstəyi ilə yenidən qurularaq dindarların ibadətinə verilir. Azərbaycan dini azadlıqların pozulduğu ölkələr arasında yox, dini azadlıqları təmin edən ölkələrin zirvəsində dayanır.

Deputatın sözlərinə görə, hesabatda maraqlı məqamlardan biri də Ermənistanla bağlı heç bir iradın olmamasıdır: "Halbuki ermənilər tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan 300 min azərbaycanlını güc yolu ilə deportasiya edərək islam dininə məxsus yüzlərlə ibadət yerlərini, məzarlıqları, dini abidələri dağıdaraq yerlə yeksan ediblər. O cümlədən torpaqlarımızı işğal altında saxladıqları 30 ildə Qarabağ torpaqlarındakı 67 məscidi dağıdaraq təhqir etmiş, azərbaycanlılara məxsus mədəni-dini abidələri dağıtmış, albanlara məxsus katolik kilsələrini erməniləşdirməyə çalışıblar. Lakin dini azadlıqların və insan hüquqlarının ən çox pozulduğu ölkələrdən biri olan Ermənistanla bağlı hesabatda heç nə qeyd olunmayıb. Ona görə ki, bu hesabatı hazırlayan ermənidir. Erməni heç vaxt Azərbaycan haqqında müsbət həsabat və ya rəy verməz".

Deputat qeyd edib ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələr səsləndirilməsi, konkret fakt göstərilmədən ölkəmizin adının heç bir beynəlxalq statusa malik olmayan qrupa, xüsusi izləmə siyahısına daxil edilməsi siyasi manipulyasiya vasitəsindən başqa bir şey deyil. ABŞ Dövlət Departamentinin bu cür əsassız və qərəzli hesabatı qəbuledilməzdir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

## Ölkəmizə qarşı qərəzli mövqe tutanlara ən yaxşı cavab

### Azərbaycan çoxəsrlik ənənələrinə söykənən tolerantlıq prinsiplərinə sadiqdir

Öz dövlətinin sərhədlərini xeyirxahlıq, xoş niyyət, xoş güzəran, firavanlıq məqsədilə deyil, qarşıdurmalar yaratmaq, müharibələri alovlandırmaq, milyonlarla insanın dinc həyatına qəsd etmək, ocaqlarını söndürmək, qaçqın vəziyyətinə düşmələrinə, yoxsulluq, aclıq içərisində yaşamalarına səbəb olmaq üçün aşan, eyni zamanda öz ölkəsinin içərisində vətəndaşlarını bərabər tutmayan, irqi ayrı-seçkiliyin hökm sürməsinə şərait yaradan ABŞ-nin, eləcə də bir sıra Qərb ölkələrinin demokratiyadan dəm vurmaları nə qədər gülünc görünürsə, həqiqəti pərdələmək, qara yaxmaq cəhdləri də o qədər ədalətsiz və qərəzlidir.




Bu qədər yalanlar uydurmaqda, qərəzli olmaqda məqsəd nədir? Həqiqəti açıq-aşkar dananların, onu görməzlikdən gələnlərin nə söylədiklərindən, nə etdiklərindən çox diqqəti bu məqamlar çəkir... ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) 2023-cü ildə Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və ABŞ Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyən edilməsi də ilk növbədə bu hesabatı hazırlayanların məramından xəbər verir.

Axı Azərbaycanın müxtəlif millətlərin, fərqli dinlərin nümayəndələrinin qardaşlıq şəraitində yaşadığı bir ölkə olduğunu görməmək mümkünsüzdür. Hər kəsə bəllidir ki, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan tolerantlıq və dözümlülük ənənələri ilə zəngindir. Bu gün respublikamızda 2258 məscid, 16 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. 958-i islam, 37-si isə qeyri-islam (26 xristian, 8 yəhudi, 1 krişna, 2 bəhai) təmayüllü olmaqla 995 dini qurum dövlət qeydiyyatındadır.

Əsrlərdir ki, bu məmləkətdə bir çox xalqın, millətin, azsaylı toplumun nümayəndələri vahid və mehriban bir ailə kimi yaşayırlar. Fərqli dinlərə mənsub olan insanlar dinc şəraitdə, sülh və əmin-amanlıq içərisində fəaliyyət göstərirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının 2023-cü ildə Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və ABŞ Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyən edilməsi ilə bağlı yaydığı bəyanatda bildirilib ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi siyasi manipulyasiya vasitəsindən başqa bir şey deyil. Bəyanatda ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının məlum hesabatlarında bir çox məqamın araşdırılmadığı, qeyri-müstəqil və ənənəvi olaraq ermənipərəst mərkəzli məlumatları yayan mənbələrdən istifadə edildiyi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsinin diqqəti cəlb etdiyi qeyd olunub.

Azərbaycanın torpaqlarının iyirmi faizi otuz ilə yaxın Ermənistanın işğalı altında qaldı. Həmin ərazilərdə olan bütün müasir və tarixi tikililər, nəinki yerli, hətta dünya əhəmiyyətli abidələr işğalçı ermənilər tərəfindən dağıdıldı, yandırıldı, yerlə yeksan edildi. Erməni vandalları dini abidələrimizə, məbədlərimizə, məscidlərimizə divan tutdular, uçurdular, məhv etdilər. Məscidlərimizi tövləyə çevirdilər. O qədər azğınlaşdılar ki, müsəlman qəbiristanlıqlarına belə əl uzatmaqdan çəkinmədilər, qəbirləri dağıtdılar. Heç bir qanuna, insanlığa sığmayan bu hadisələri nə ermənipərəst Qərb ölkələri, nə də hər zaman demokratiyadan, insan haqlarından dəm vuran ABŞ "gördü". Təcavüzkar, qəsbkar ermənilərə "gözün üstə qaşın var" deyən tapılmadı.

Ermənistanın otuz ilə yaxın işğal müddətində Azərbaycana vurduğu maddi və mənəvi ziyanın nə qədər böyük olduğunu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsindən sonra görə bildik. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bəyanatında bu faktlar diqqətə çatdırılıb: "Təkcə onu demək kifayətdir ki, 67 məsciddən yalnız 2-si saxlanılmışdır. Onlardan da Ağdam Cümə məscidi hərbi oriyentir məqsədilə yararsız vəziyyətdə, Şuşadakı Yuxarı Gövhər ağa məscidi də qismən yararlı olub ki, onu da dünyaya özlərini "tolerant" göstərmək məqsədilə İran məscidi kimi təqdim etməyə çalışıblar".

Azərbaycan paytaxtında - Bakının mərkəzində erməni-qriqoryan kilsəsini, eləcə də oradakı minlərlə erməni dilində olan kitabları qoruyub saxladı. İşğalçı Ermənistanın silahlı birləşmələri tərəfindən isə işğal etdikləri ərazilərimizdəki 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə dağıdıldı. Nə ermənilər bu cinayətləri törədərkən, nə də sonralar bu faktların heç biri ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının hesabatlarında əksini tapmadı. Əvəzində ABŞ Dövlət Departamenti içərisində kök salmış ermənilərə, ermənipərəst dairələrinə qərəzli, ədalətsiz mövqelərini sərgiləmək üçün meydan verdi. Belə olmasaydı, ABŞ Dövlət Departamenti dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı illik hesabatının Azərbaycana aid hissəsini dövlət komissiyasının rəhbəri Daniela Aşbaxyan olan ictimai xidməti tərəfindən hazırlatmazdı.

Ölkəmizə qarşı qərəzli mövqe tutanlara ən yaxşı cavab Azərbaycanda mövcud olan reallıq, bütün xalqların, etnik azlıqların birlik, bərabərlik, mehribanlıq şəraitində yaşamasıdır. Azərbaycan çoxəsrlik tarixinə söykənən tolerantlıq prinsiplərinə sadiqdir. Prezident İlham Əliyevin hələ illər öncə qeyd etdiyi kimi: "Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə ki, çox istərdik başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşsünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşsünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə yaşaya bilərlər, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Fransa üçün erməni amili sadəcə vasitədir



**"Azərbaycan Vətən müharibəsindən sonra formalaşan yeni situasiyada beynəlxalq hüquq normalarına uyğun olan beş əsas prinsipi təqdim etməklə Ermənistanla sülh danışıqlarının təşəbbüskarı kimi çıxış edir. Moskva, Brüssel və Vaşinqton platformaları çərçivəsində sülh müqaviləsi üzrə danışıqlar aparılıb və Prezidentin köməkçisi Hikmət Hacıyevin Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində də haqlı olaraq ifadə etdiyi kimi, "müxtəlif mərhələlərdə müxtəlif formatlar bizə irəli getməyə imkan verib. Lakin separatizm ocağının mövcudluğu, habelə Ermənistan silahlı qüvvələrinin hissələrinin Azərbaycan ərazisində qalması şəraitində nəinki sülh müqaviləsi üzrə ciddi nəticələr əldə etmək, bütövlükdə hətta sülh barədə danışmaq belə mürəkkəb idi".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, bəzi Qərb dairələri Qarabağ iqtisadi rayonunun bir sıra bölgələrində o zaman davam edən, işğal və separatizmlə ehtiva olunan status-kvoya regiona təsir etmək imkanı kimi baxırdılar: "Nəticə etibarilə erməni cəmiyyətində revanş xülyaları baş qaldırır, Fransanın timsalında Qərb dairələri prosesləri yeni hərbi qarşıdurmaya təşviq edirdi. Lakin 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatizmə son qoyulması, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi və Ermənistan ordusunun hissələrinin Qarabağdan çıxarılması ilə Azərbaycanın suverenliyi tam bərpa olundu. Beləliklə, Azərbaycanla Ermənistan arasında 35 illik gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarıldı. Bu gün Azərbaycan regionda əməliyyat şəraitinə tam nəzarət edir və artıq 4 aya yaxındır ki, bölgəmizdə atəş səsləri eşidilmir. Yəni mahiyyət etibarilə ölkələr arasında yekun sülh üçün heç bir maneə yoxdur".

Deputat qeyd edib ki, proseslərin ümumi gedişatı müsbət məcrada xarakterizə olunur: "Xüsusən Azərbaycan Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatının 7 dekabr birgə bəyanatı ilə hərbçilərin qarşılıqlı olaraq azad edilməsi, habelə COP çərçivəsində qarşılıqlı xoş niyyətdə ehtiva olunan gedişlər keyfiyyətcə yeni mərhələ deməkdir. Üstəlik, cari situasiya vasitəçiliyə regiona təsir rıçağı kimi baxan bəzi qlobal güc mərkəzlərinin iddialarının əksinə, Azərbaycan və Ermənistanın vasitəçi olmadan birbaşa ikitərəfli danışıqlarda müsbət məcraya nail ola bildiyini göstərdi".

Bəhruz Məhərrəmov söyləyib ki, rəsmi Bakı vasitəçiliyin əleyhinə deyil, lakin bir şərtlə ki, bu, səmimi xarakter daşısın: "Ali səviyyədə də dəfələrlə ifadə edildiyi kimi, 30 il ərzində yalnız işğal və təcavüz status-kvosunun möhkəmlənməsinə, münaqişənin dondurulması və Azərbaycanın tədricən işğalla barışmasına xidmət edən vasitəçiliyə şahidlik etmişik. Nəticədə beynəlxalq hüququn aliliyini, BMT Təhlükəsizlik Şurası qətnamələrinin tələblərini Azərbaycan özü təmin etməli oldu. Birbaşa təmaslar isə elə ilk aydaca effekt verdi və sərhəd komissiyalarının fəaliyyəti üzrə müvafiq reqlament sənədi qəbul edildi".

Deputat onu da bildirdi ki, beynəlxalq birliyin bir sıra subyektləri cari vəziyyətə özünün qeyri-hüquqi maraqları və mənafeləri üçün təhdid kimi baxır. Məsələn, Fransa hər cəhdlə, bütün səviyyələrdə sülh prosesinin pozulması üçün çoxşaxəli və davamlı fəaliyyət sərgiləyir. Yaxud ABŞ Dövlət Departamenti əsassız açıqlamaları ilə regionda həssas duruma qeyri-konstruktiv təsir göstərməyə cəhd edir. Təbii ki, bu kimi cəhdlər Azərbaycanın hərbi siyasi qələbələri ilə yaratdığı yeni reallıq qarşısında səmərəsiz olsa da, ümumi uzlaşmaya və yekun sülhün əldə edilməsinə təsirsiz ötüşmür. Lakin qeyd etdiyimiz kimi, bu proseslər ümumi gedişatda həlledici amil kimi çıxış edə bilmir.

Bəhruz Məhərrəmovun sözlərinə görə, Ermənistan cəmiyyəti birdəfəlik anlamalıdır ki, hansısa üçüncü tərəf üçün Ermənistan dövlətinin, yaxud sıravi erməninin maraqları önəmli deyil: "Məsələn, regionda neokolonialist niyyətlə möhkəmlənməyə çalışan Fransa üçün erməni amili sadəcə vasitədir və Ermənistan sülh və sabitlik əleyhinə gedişatda imperialist Makron Fransasının maşasına çevrilməməlidir. Ötən üçillik dövr də göstərdi ki, beynəlxalq hüququ rəhbər tutan Prezident İlham Əliyev qarşısında nə Makron, nə də Fransanın orbitində olan digər subyektlər duruş gətirdi. Heç bir güc regionda işğal və təcavüzün, separatizmin əbədiliyini təmin edə bilmədi. Azərbaycanın artan imkanları qarşısında bundan sonra da belə bir ehtimal mümkünsüzdür".

Belə qeyri-sağlam qlobal mühitdə ən doğru addımın Azərbaycan və Ermənistanın vasitəçisiz təmasları olduğunu bildirən deputat əlavə edib: "Bu gün sülh sazişinin mətni üzərində işin birbaşa olaraq Bakı ilə İrəvan arasında aparılması çox pozitiv situasiyadır. İndi yeganə zərurət İrəvanın iradə nümayiş etdirərək, ən azı öz maraqları və dövlətçiliyin perspektivi naminə Qərbdəki pis məsləhətçilərinin təklif və tələblərindən imtinası və sülhə can atmasıdır. Belə olacağı halda sülhə ən qısa müddətdə nail olmaq mümkündür".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Robert MOBİLİ: "Blinkenin bəyanatı siyasi möhtəkirlikdən başqa bir şey deyil"

ABŞ Dövlət katibinin Azərbaycanda dini etiqad azadlığının məhdudlaşdırılması ilə bağlı bəyanatının arxasında heç də dini qayğıkeşlik deyil, siyasi çalarlar dayanır. Bu barədə AZƏRTAC-a müsahibəsində Azərbaycandakı Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili bildirib.

*- ABŞ-nin Dövlət katibi Entoni Blinken bu yaxınlarda verdiyi bəyanatında guya dini etiqad azadlıqlarının pozulması hallarının olduğu ölkələr siyahısında Azərbaycanın da adını çəkib. Ölkəmizdəki dini konfessiyaların nümayəndələri artıq müvafiq bəyanatlarla çıxış ediblər. Amerika administrasiyası faktiki olaraq öz siyasi ambisiyalarının və erməni lobbisinin planlarının əsirinə çevrilib və bu, onu açıq-aşkar absurd vəziyyətinə salıb...*

- Azərbaycanın dini etiqad azadlıqlarının potensial olaraq pozulması üzrə nəzarət tələb edən ölkələrin siyahısına əlavə edilməsi təəssüf hissi doğurur. Bu, tamamilə ədalətsiz, qərəzli yanaşmadır və məlumdur ki, siyasi məqsəd daşıyır. Azərbaycan özünün çoxəsrlik multikulturalizm ənənələri ilə tanınır. Ölkəmizdə müxtəlif dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayır, öz dini ayinlərini sərbəst şəkildə icra edirlər. Bunu haçansa ölkəmizi ziyarət etmiş hər kəs təsdiq edə bilər.

Qeyd etməliyəm ki, mən şəxsən beynəlxalq dini azadlıqlar üzrə ABŞ Komissiyasının müzakirələrində iştirak etmişəm, Azərbaycandakı dini etiqad azadlığından danışmışam, komissiya üzvlərini ölkəmizə gəlməyə və vəziyyətlə yerində tanış olmağa dəvət etmişəm. Yəni hesabat kimlərinsə uydurmaları əsasında deyil, faktlara uyğun tərtib edilməlidir. Aydın olur ki, ABŞ-nin ittihamları siyasi məqsəd daşıyır. Bunun arxasında təkcə erməni lobbisi deyil, həm də başqa anti-Azərbaycan dairələr dayanır.

Azərbaycan çoxkonfessiyalı ölkədir, burada dinə və mədəniyyətə həmişə hörmətlə yanaşıblar. Ölkəmizdə məscidlər, sinaqoqlar, kilsələr, Bakının ən mərkəzində isə erməni kilsəsi var.

Zənnimcə, ABŞ Dövlət katibinin Azərbaycanda dini etiqad azadlığının məhdudlaşdırılması ilə bağlı bəyanatı siyasi möhtəkirlikdən başqa bir şey deyil və bu, arxasında heç də dini qayğıkeşliyin deyil, siyasi məqsədlərin dayandığı ikiüzlülükdür.

*- ABŞ-nin ittihamları qeyri-ixtiyari olaraq sual doğurur: "Bəs hakimlər kimdir?" Birləşmiş Ştatları dini tolerantlıq nümunəsi adlandırmaq düzgün olmazdı. Bu barədə Sizin fikrinizi bilmək istərdim.*

- Fikrimcə, Amerika dini dözümsüzlük və dindarların hüquqlarının pozulması barədə uydurma ittihamlarla çıxış edərkən özünün geosiyasi opponentləri ilə haqq-hesab çəkməyə çalışır və onların daxili işlərinə müdaxilə etmək üçün bəhanə axtarır. 2000-ci illərin əvvəlində əsas hədəfin Türkiyə olduğunu hamı xatırlayır. ABŞ-də keçirilən sosial sorğular dini zəmində, xüsusən islamofobiya üzrə ayrı-seçkiliyin olmasına dair danılmaz faktları göstərir. Xatırlayırsınızsa, Trampın dövründə yeddi müsəlman ölkəsinin vətəndaşlarının ABŞ-yə girişi qadağan edilmişdi. Bayden bu siyasəti yumşaltdı, amma Birləşmiş Ştatlarda dini zəmində ayrı-seçkilik faktları ildən-ilə artır. Avropada da belə hallar mövcuddur. Elə Fransanı götürək. Mən özüm şahidəm ki, sinaqoqa getmək üçün konvoyların sırasından keçməli olduq, hərçənd bu, Tanrının məbədidir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar həmişə açıqdır və onlara giriş tamamilə sərbəstdir. Bu səbəbdən dindarların heysiyyətini təhqir edən belə halların olduğu ölkələrdən tolerant Azərbaycanın ünvanına ittihamlar eşitmək çox anlaşılmazdır.

*- Zəhmət olmasa deyin, işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın dini abidələrini hansı vəziyyətdə gördünüz?*

- Çox aktual, deyərdim ki, gündəmə aid olan sualdır. İcmamız bu abidələri ziyarət edib. İslam irsi praktiki olaraq Yer üzündən silinib. Alban mədəniyyəti abidələri də acınacaqlı vəziyyətdə idi, bir çoxu dağıdılıb. Ermənilər məscidlərdə və alban məbədlərində mal-qara saxlayır, yəni onlardan tövlə, bəzi dini abidələrdən isə silah anbarı kimi istifadə edirdilər. Bir sıra alban abidələri - Kəlbəcərdəki Xudavəng monastır kompleksi, həmçinin Hadrut və Laçındakı abidələrə qarşı vandallıq edilib, onların görkəmi dəyişdirilib, erməniləşdirilib. Söhbət kilsələrdə və interyerdə olan xaçlardan gedir. Yeri gəlmişkən, Azərbaycan dövlətinin dini abidələrə münasibətini açıq şəkildə nümayiş etdirən bir mühüm faktı mütləq qeyd etməliyəm. Vətən müharibəsi vaxtı Nic kəndində Müqəddəs Məryəm kilsəsi əsaslı təmirdən sonra istifadəyə verildi. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak etdilər. Kilsə Heydər Əliyev Fondu tərəfindən təmir edilib. Bu, Azərbaycan dövlətinin dini dəyərlərə hörmət və qayğısının bariz təzahürü deyilmi?! Məncə, cavab aydındır!

*- Sonuncu sualım. Siyasi məsələləri dinlərarası konfrontasiya müstəvisinə köçürmək cəhdləri əvvəllər də olub. Xoşbəxtlikdən Azərbaycan rəhbərliyinin müdrik, düşünülmüş addımları sayəsində onların qarşısı alınıb. Bu tendensiyaların törətdiyi təhlükə nədən ibarətdir? Mümkündür ki, bu istiqamətdə daha çox maarifləndirmə işləri aparılsın...*

- Bəli, tamamilə haqlısınız, bu cəhdlər əvvəllər də edilib. Onların məqsədləri siyasi proseslərə dini məzmun vermək və bununla da revanşist istəkləri alovlandırmaq üçün insanların hisslərinə təsir etməkdir. Azərbaycanla Ermənistanın sülh sazişi imzalamağa yaxın olduğu indiki vaxtda ABŞ hakimiyyət orqanlarının bu cür bəyanatlar verməsinin səbəbi hər kəsə aydındır. Vaşinqton və Fransa vasitəçilik missiyasına qayıtmaq istəyirlər, lakin onlar artıq özlərini gözdən salıblar və bu gülünc ittihamlar çətin ki, etimadın yaranmasına kömək etsin. Dini möhtəkirlik halları, Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri var. Bir daha qeyd edim ki, Azərbaycan tolerant, multikultural ölkədir ki, burada həm ümumilikdə dövlət, həm də hər bir vətəndaş bütün dinlərə hörmətlə yanaşır.

# Tramp Baydenə ultimatum verib

## Sabiq prezident Ağ Evin hazırkı rəhbərini korrupsiyada ittiham edir

ABŞ-nin keçmiş prezidenti Donald Tramp Ağ Evin hazırkı lideri Co Baydeni cinayət işi ilə hədələyib. Bununla bağlı o, sosial şəbəkədə yazıb: "Əgər mənim toxunulmazlığım təmin edilməsə, korrupsiyaya uğramış Co da ona sahib olmayacaq və cənub sərhədlərimizdə miqrasiya böhranı, Əfqanıstanın təhvil verilməsi, habelə müxtəlif vasitələrlə əldə etdiyi milyonlarla dollar xarici pula görə, ona cinayət işi açılacaq. Ədliyyə Departamentindən siyasi rəqibə qarşı silah kimi istifadə edərək Co nəhəng Pandora qutusunu açır".



Xatırladaq ki, 2021-ci il yanvarın 6-da Tramp tərəfdarları Konqresi bir neçə saatlıq blokadaya alaraq Kapitoliyə hücum ediblər. Etirazçılar binadan qovulduqdan sonra konqresmenlər Co Baydenin prezident seçkilərində qalib gəldiyini təsdiqləyiblər. Bundan sonra ABŞ-də yüzlərlə insan hücumda iştirak etmək ittihamı ilə həbs olunub.

Sabiq prezident dörd cinayət işi üzrə ümumilikdə 91 ittihamla üz-üzədir və respublikaçı siyasətçi bunu demokratik isteblişmentin onun Ağ Evə qayıtmasına mane olmaq cəhdi adlandırır. İttihamların cəminə əsasən, siyasətçini 700 ildən çox həbs cəzası gözləyir. Amma Tramp bütün ittihamları rədd edir.

ABŞ-nin keçmiş prezidentinə qarşı Kapitoliyə hücuma görə məhkəmənin 2024-cü il martın 4-də Vaşinqtonda başlayacağı gözlənilir. Trampın müdafiəsi ondan ibarətdir ki, birincisi, dövlət başçısı kimi onun hüquqi toxunulmazlığı var, ikincisi, seçkilərdə məğlubiyyətlə barışmayaraq söz azadlığı hüququndan istifadə edib.

Bu arada Donald Tramp Ağ Evin rəhbəri postuna qayıdacağı təqdirdə planetdə sülhü "güc yolu ilə" bərpa edəcəyinə söz verib: "Biz bütün planetimizdə gücün köməyi ilə sülhü bərpa edəcəyik".

Ayova ştatında tərəfdarları qarşısında çıxış edən Tramp 2024-cü il prezident seçkilərində digər namizədlər arasında yalnız özünün üçüncü dünya müharibəsinin başlanmasının qarşısını almağa qadir olduğunu vurğulayıb. Onun fikrincə, bəşəriyyət artıq qlobal münaqişəyə yaxındır.

ABŞ-də növbəti prezident seçkiləri 2024-cü ilin noyabrında keçiriləcək. Respublikaçılar Partiyasından namizəd olmaq üçün Donald Tramp, Florida qubernatoru Ron DeSantis, iş adamı Vivek Ramasvami, ABŞ-nin BMT-dəki keçmiş səfiri Nikki Heyli, Nyu Cersi ştatının keçmiş qubernatoru Kris Kristi və başqaları mübarizə aparırlar.

ABŞ-nin keçmiş vitse-prezidenti Mayk Pens, Şimali Dakota ştatının qubernatoru Daq Burqum, Arkanzas ştatının keçmiş qubernatoru Asa Hatçinson və Cənubi Karolina senatoru Tim Skott artıq seçki yarışından imtina ediblər.

Amerikanın hazırkı lideri Co Bayden ötən ilin aprel ayında Demokratlar Partiyasından yenidən prezident seçilmək niyyətində olduğunu açıqlamışdı.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan gəmiləri və struktur idarələri üçün müxtəlif növ süzgəclərin satın alınması məqsədilə *müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***


# Paşinyanın Qərb sevgisi…

## Erməni ekspertlər bu qənaətdədirlər ki, baş nazir Hayastanı siyasi və diplomatik məğlubiyyətə aparır

Hayastan və Rusiya arasında münasibətlər son bir il ərzində kifayət qədər pisləşib. Bütün bunların kökündə dayanan başlıca amil isə baş nazir Nikol Paşinyanın komandasında Moskva əleyhinə olan şəxslərin çoxluq təşkil etməsidir. Ötən il Hayastan parlamentinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya etməsindən sonra Paşinyan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atmaqda davam edəcəyini göstərdi. Daha çox narahatlıq doğuran məsələlərdən biri də anti-Rusiya əhvali-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və paralel olaraq Hayastanda Rusiyanın dayaqlarının laxladılmasıdır.

Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə qarşı siyasətini davam etdirməkdədir. Ancaq Paşinyanın Rusiyanı bölgədən sıxışdırmaq cəhdi Hayastan üçün uğurlu heç nə vəd etmir.

İrəvanda nəşr olunan "Droşak" jurnalında yazılıb ki, Paşinyan və onun komandası siyasi cəhətdən Qərb kosmopolitizmi ilə rusofobiya ideologiyası əsasında formalaşıb və öz elektoratına da bunu aşılaya bilib: "Sələflərinə qarşı nifrət və Rusiyanı lənətləməklə siyasi intihara doğru getdiklərini belə anlamırlar. Siyasət sevgi və nifrətlə deyil, soyuq başla yürüdülür. Ən azı, böyük geosiyasi alova odun olmamaq üçün Gürcüstan və Ukrayna nümunələri bizə dərs olmalıdır. Qərb və ya başqası bizdən ötrü döyüşmək üçün öz qoşunlarını gətirəcəkmi? Gürcüstan və Ukraynanın nümunələri göstərdi ki, Qərb öz oyununu ustalıqla oynayır və nəticə acınacaqlı olur".

Qeyd olunub ki, 44 günlük müharibədən sonra Nikol Paşinyan sələflərinin çoxdan Qarabağı təslim etdiyini bildirib. O, hələ də öz fikrində qalır və hər dəfə də eyni şeyləri təkrar edir, daha əvvəl baş verən danışıqları xatırladır. Sanki Paşinyanın rəhbərliyi altında ölkənin dəhşətli məğlubiyyəti və ərazilərin böyük hissəsini kağız üzərində təslim etməsi heç bir əhəmiyyət daşımır. Paşinyanın danışıqlara sıfır nöqtəsindən başlaması və "Qarabağ Ermənistandır və nöqtə" deməsi heç bir məna kəsb etmirdi. Həmçinin yüksəkrütbəli xarici rəsmilərin və mötəbər təşkilatların nümayəndələrinin Nikol Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyan ilk erməni lideri olması və bu rəsmi tanımadan sonra heç nə edə bilməyəcəyi barədə bəyanatları da mənasızdır.

Məqalədə daha sonra vurğulanır: "Xalq elə vəziyyətə düşüb ki, heç bir milli hökumət heç vaxt Ermənistan dövlətinin suverenliyini bərpa edə bilməyəcək. Görünən odur ki, Paşinyan erməni xalqının özünü müdafiə etmək gücündə olduğuna inanmır, üstəlik, milli ruhda yeni yüksəlişin qarşısını almağa çalışır. Bu mənada onun erməni xalqına ilk və ən böyük xəyanəti hərbi və dövlət idarəçiliyi təcrübəsi olmadan faktiki olaraq müharibə vəziyyətindən çıxmamış bir ölkənin rəhbəri olmaq istəyi idi. Məğlubiyyətlə üz-üzə qalan Paşinyan indi Ermənistanı total tarixi, siyasi və diplomatik məğlubiyyətə aparır".

Bu arada erməni analitik Suren Tovmasyan deyib ki, Paşinyan hakimiyyəti Rusiyaya qarşı atdığı son addımlarla Moskvaya qara bir "quş" qoydu, digər tərəfdən də Hayastanı Qərbə doğru çevirdiyini dünyaya göstərdi. Hayastan vasitəsilə regiona nüfuz edən Qərb Rusiyanı sıxışdırıb çıxarmaq kimi geosiyasi məqsədlərini həyata keçirir: "Bəs, İrəvanın xarici siyasətini Moskvadan Brüsselə dəyişməkdə günahkar kimdir? 44 günlük müharibədə və ondan sonrakı dövrdə Hayastana xəyanət edən yalnız Rusiyanın özüdür. Kreml Azərbaycan və Türkiyəni razı salmaq üçün regionda yeganə müttəfiqinin maraqlarını heçə saydı. Doğrudanmı, Moskva bu qədər sadəlövh idi ki, İrəvanda heç bir əks tədbir görülməyəcəyini düşünürdü? Hətta küncə sıxışdırılmış siçan vəhşi heyvana çevrilir. Təbii ki, Rusiyanın hələ də Hayastana qarşı çoxlu təzyiq rıçaqları var. Unutmayaq ki, ölkəmiz, sözün əsl mənasında, Rusiya hərbçiləri və FTX-si ilə doludur. Düşünürəm ki, yaxın günlərdə Rusiya İrəvana qarşı bütün təzyiq rıçaqlarından istifadə edəcək".

Beləliklə, Hayastanda hazırda baş verənlər bu ölkəni daha sürətlə hərtərəfli iflasa aparır. Çünki İrəvan xarici himayədarları olmadan yaşaya bilmək iqtidarında deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Fransanın yeni baş naziri bəlli oldu

## Elizabet Bornu Qabriel Attal əvəzlədi

Fransanın baş naziri Elizabet Born nazirlər kabinetində baş verən dəyişikliklərlə bağlı günlər ərzində getdikcə qızışan spekulyasiyalardan sonra istefa verib.



Bu yay Avropa Parlamenti seçkiləri və Paris Olimpiadası ərəfəsində ikinci mandatına yeni təkan vermək istəyən prezident Emmanuel Makron, "millətə xidmətdə nümunəvi fəaliyyətinə" görə Borna təşəkkür edib.

Born istefa məktubunda hökumətdə islahatların davam etdirilməsinin həmişəkindən daha vacib olduğunu bildirib. Bununla belə, o, postundan ayrılmaq qərarının ona aid olmadığını və prezidentin yeni baş nazir təyin etmək istəyini nəzərə aldığını açıqlayıb. Bu barədə Britaniyanın "The Guardian" qəzeti yazır.

Fransa sisteminə görə, prezident baş naziri təyin edir, lakin onu vəzifədən kənarlaşdıra bilmir. Əvəzində hökumət başçısından istefa verməyi tələb edir.

Yerdəyişmələr Avropa Parlamentinə seçkilərdən beş ay əvvələ təsadüf edir və avroskeptiklərin, ölkədə yaşayış xərclərinin artması və Avropa hökumətlərinin immiqrasiyanı cilovlaya bilməməsi ilə bağlı geniş ictimai narazılığın olduğu bir vaxtda rekord nəticələr əldə edəcəyi gözlənilir.

Rəy sorğuları göstərir ki, Makronun partiyası ifrat sağçı lider Marin Le Penin partiyasına iyunda keçiriləcək səsvermə ərəfəsində 10 faiz uduzur.

Xatırladaq ki, 62 yaşlı Elizabet Born 2022-ci ilin mayında, Makron Yelisey Sarayına yenidən seçildikdən az sonra baş nazir təyin edilib. O, 1958-ci ildə Beşinci Respublika qurulandan sonra ikinci qadın baş nazir olub. Bundan bir neçə həftə sonra hökumət ümumi seçkilərdə Milli Assambleyada mütləq çoxluğunu itirib.

Nəticədə Born azlıq hökumətinin başçısı kimi Makronun prezidentlik kampaniyasında vəd edilmiş mübahisəli qanunları, o cümlədən pensiya sistemində əsaslı dəyişiklikləri parlament vasitəsilə irəli sürmək məcburiyyətində qalıb və bu məsələlər üzrə səsvermədən yayınmaq məqsədilə konstitusiyanın mübahisəli 49:3 maddəsinə müraciət etməli olub. Bildirilir ki, Born hökuməti bu bənddən 23 dəfə istifadə edib.

Qızğın mübahisə doğuran immiqrasiya haqqında qanun layihəsi, Born sağçı Respublikaçılar Partiyası ilə güzəştə getməyə çalışdıqdan sonra qəbul edilib.

Özünü "sol təmayüllü qadın" kimi təsvir edən Born siyasi spektrin əks tərəflərinin tənqidinə məruz qalıb.

Bir qrup ekoloq deputatın rəhbəri Siriel Şatlen, Elizabet Bornun marionet baş nazir olduğunu ehtimal edir: "O, Emmanuel Makrona o qədər xidmət etdi ki, özünü itirdi. O, dövlətə xidmət etmək istəyirdi. Bunun əvəzinə o, istiqaməti, mövqeyi, dəyərləri olmayan, yalnız sosial modelimizi məhv etmək amalı ilə yaşayan prezidentə xidmət etdi"...

Elit ali təhsil məktəblərinin məzunu olan Born baş nazir təyin olunmazdan əvvəl nəqliyyat naziri, ətraf mühit naziri və məşğulluq naziri vəzifələrində çalışıb.

Dünənə kimi heç bir varisin adı açıqlanmayıb və Yelisey Sarayı Born hökumətinin digər üzvləri ilə birlikdə yeni hökumət təyin olunana qədər cari məsələlər üzərində işləməyə davam edəcəyini təsdiqləyib.

Son məlumata görə, Fransanın yeni baş naziri 34 yaşlı təhsil naziri Qabriel Attal təyin olunub.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***


# BİLDİRİŞ

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 14.11.2023-cü ildə elan edilmiş**

- 110/35/10 kV-luq "Xankəndi 1" Qapalı tipli YS-nın tikintisi işləri;
- Regional Rəqəmsal Elektrik Enerji İdarəetmə mərkəzi, Nəqliyyat təmir sahəsi, Mühəndis yataqxanasının tikintisi işləri;
- 110/35/10 kV-luq "Xankəndi-2" YS-nın tikintisi işləri;
- 110/35/10 kV-luq "Həsənriz" YS-nın yenidən qurulması işləri üzrə təkliflər sorğusu üsulu ilə keçirilən müsabiqələrdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Azconstruction" QSC və "Electro İndustries" QSC şirkətləri müsabiqələrin qalibləri müəyyən edilmişdir. Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanıb.

***Tender komissiyası***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Tibbi və bioloji fizika kafedrasının müdiri dosent

**ŞAHİN BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Tərtər Hərbi Məhkəməsinin sədri İlqar Quliyevə atası

**MƏSAİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3529**
**Sifariş 15**

**Qiyməti 60 qəpik**